**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XANVERDİ TURAB OĞLU FƏRZİYEV**

# MÜASİR AZƏRBAYCAN DRAMATURGİYSINADA PSİXOLOGİZM PROBLEMİ (İ. ƏFƏNDIYEVIN YARADICILIĞI ƏSASINDA)

İxtisas 5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya elmləri üzrə fəlsəfə doktoru dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya Bakı Dövlət Universitetinin Klassik Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir

***Elmi rəhbər:*** *filologiya üzrə elmlər doktoru, professor*
**Xalid Əlimirzə oğlu ƏLİMİRZƏYEV**

***Rəsmi opponentlər:*** *filologiya üzrə elmlər doktoru, professor*
**Nizaməddin Şəmsəddin oğlu ŞƏMSİZADƏ**

*filologiya üzrə elmlər doktoru,*
*AMEA- nın müxbir üzvü*
**Muxtar Kazım oğlu İMANOV**

***Aparıcı müəssisə:*** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə "__23__ " ____sentyabr______ 2015-ci il saat "_14-00___ " - də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_23___ " __iyun______ 2015-ci ildə göndərilmişdir.

D.02.181 Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru,
professor T.H.HÜSEYNOV

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bədii əsərin mərkəzində dayanan insan və onun taleyi müəyyən mənəvi-psixoloji mühitin, cəmiyyətin ab-havası ilə şərtlənir. Burada müxtəlif həyati hadisələr fonunda gerçəklənən insan və onun taleyi dövrün, mühitin, cəmiyyətin, zamanın kontekstində açıqlanır, durulur. Bu baxımdan "sənət əsəri obyektiv aləmin subyektiv obrazı – ifadəsidir. ...yaradıcı şəxsiyyət təsvir etdiyi həyat obyektini öz dünyagörüşünün, hissi və əqli qənaətlərinin, estetik baxışlarının süzgəcindən keçirərək təqdim edir"[1],"hadisə və ya şəxsiyyətin müraciət etdiyi epoxanın obyektiv qanunauyğunluğuna müvafiq bədii şərhini verməklə yanaşı, onun fərdi xüsusiyyətlərini, təkraredilməzliyini də konkret insanın davranışında, əməl və fəaliyyətində, psixologiyasında cəmləşdirir"[2]. Sənətkar insan taleyinin ən gərgin anlarına belə dərindən nüfuz etdikcə Böyük İnsan obrazı yaradaraq oxucuları zəngin mənəvi-əxlaqi keyfiyyətlərlə, saf, təmiz, ülvi hisslərlə yaşamağa çağırır, yaratdığı obrazı canlı varlıq kimi daxili-psixoloji dərinliyi ilə əks etdirməklə bədii faktın reallığına zəmin yaradır.

Başqa sözlə, obraz oxucunu, tamaşaçını bütün daxili əzəməti ilə üzun müddətə qədər öz təsiri altında saxlayırsa, bundan "əgər tamaşaçı həzz alırsa, deməli, o, hadisələri qiymətləndirir, onlara ictimai mövqedən yanaşa bilir; burada emosional-estetik münasibət həm də ictimai idrak vasitəsinə çevrilir. Daha doğrusu, yazıçının bədii idrakının oyatdığı hiss tamaşaçının ağıl işlətməsinə, hadisələrin mahiyyətini dərk etməsinə səbəb olur; beləliklə də əxlaqa təsir göstərir"[3]. Bu baxımdan bədii fakt və hadisələr, xarakterlər müəyyən psixoloji proses, vəziyyət, hal, məqamlarla və ya əlamətlərlə müşayiət olunmaqla ümumilikdə obrazlar aləminin canlı, təbii portreti ilə diqqəti çəkir.

Bu cəhətdən bədii əsəri insan orqanizminə bənzətmək olar. Mövzu, ideya, süjet, kompozisiya, janr, üslub, dil onun maddi qabığını, obrazlar aləminin daxili hissi-emosional vəziyyəti, onların ətraf aləmə münasibəti, davranışı məhz psixoloji proses, hal, vəziyyət və əlamətlərlə müşayiət olunan bədii-estetik prinsip, kateqoriya kimi müəyyənləşən və təsdiqini tapan psixologizm və ya psixoloji təhlil sayəsində əsər bədii həyat qazanır, onun ruhunu, canını təşkil edir. Bədii əsər obrazlı formada deyilirsə, cism ilə canın və ya məzmun ilə formanın vəhdətindən yaranır. Psixologizm burda məzmun, həm də forma kimi bədii təsdiqini tapır və estetik dəyər əldə edir. Bu baxımdan psixologizm əsər üçün ölçü, dəyər vahididir. Ədəbi-estetik fakt kimi müəyyənləşən psixologizm və ya psixoloji təhlili şərtləndirən hiss, emosiyalar, düşüncələr, hərəkətlər, davranışlar, münasibətlər nə qədər dərin və təbii, inandırıcılığı ilə diqqəti çəkirsə və bununla oxucu ilə dialoqunda canlı ünsiyyətə, təmasa daxil olursa,

[1] Abdullazadə A. Şairlər və yollar. Bakı: Elm, 1984, s.16
[2] Bayramov Q. Tarixilik və müasirlik. Sosialist realizmi müasir mərhələdə. Bakı: Elm, 1988, s.139
[3] Səfiyev A. M.F.Axundovun estetikasında komiklik məsələsi. // Azərb.SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. Bakı: Elm, 1987, № 3, səh.24

deməli, əsər psixologizm və ya psixoloji təhlil baxımından bədii məhsul kimi tələb olunan estetik dəyərini artıq qazanmışdır. Burada inikasını tapan insan, fərd, şəxsiyyət və onun taleyi hiss və düşüncələrin, davranışların, münasibətlərin fonunda aydınlaşaraq durulur. Fərd, şəxsiyyət özünü və ətraf aləmi təhlildə özünü və ətraf aləmi tanıyıb dərk etməyə başlayır. Burda daha kamilləşmiş, təkmilləşmiş insan obrazından danışmaq olar. Ümumiyyətlə, "qəhrəmanın həyatı analitik süzgəcdən keçirməsi bədii fikrin psixoloji təhlil meyillərindən doğur, yazıçını hadisədən çox, onun daxili mahiyyəti, onu doğuran səbəblər, sosial mühitdə baş verən dəyişikliklərin ictimai kökləri düşündürür. ... həyatı qavramaq, dərk etmək, onun təhlilini vermək baxımından ədəbi fikir ilk növbədə, fəlsəfi-psixoloji səciyyə daşıyır"[4].

Psixologizmi şərtləndirən cəhətlərdə əsas məqam odur ki, burada o, dövr, mühit, cəmiyyət və ümumilikdə ətraf aləmlə əlaqəli proseslərin, hadisə, vəziyyətin birbaşa bədii-estetik ifadəçisi olur. Insan ətraf gerçəklikliyin fonunda fərqli fərdi-sosial, milli, bəşəri baxımdan təhlilə çəkilərək bütövlükdə özünün mühit daxilində müəyyən mövqe nümayiş etdirməsinə bədii işıq salmaqla yanaşı, mühitin insan aləmindən onun subyektiv qavrayışından təqdiminə də yeni çaların əlavə olunmasına diqqəti artırır. Bu baxımdan elmi-nəzəri fikirdə söz sənətinin üzvi, tərkib hissəsi kimi izlənilərək müəyyənləşən psixologizm əsərdə tutduğu başlıca yeri, mövqeyi baxımından bədii-estetik şərtini yerinə yetirən və ölçü, dəyər rolunda çıxış edən kateqoriya kimi təsdiqini tapır.

Ümumilikdə, əsərin arxitektonikasını, obrazlar aləmini, mövzu-ideya, süjet, kompozisiya, dil, üslub, janr, poetika məsələlərini əhatə edən psixologizm ədəbi-bədii, nəzəri-estetik faktı kimi spesifik cəhətləri ilə qabardılaraq meydana gəlir və formalaşır.Psixologizm problemi ilə bağlı mülahizələrin mövcud olduğu halda, hətta ayrı-ayrı tədqiqatlar, monoqrafiyalar yazılmışsa belə, onu orta məxrəcə gətirib nəzəri-metodoloji cəhətdən vahid ədəbi-bədii və estetik tərəflərini üzə çıxarıb müəyyənləşdirmək və sistemli şəkildə izlənilərək öyrənilməsinə nail olmaq, konseptual şərhini vermək hazırkı çağdaş ədəbiyyatşünaslığın qarşısında aktual elmi məsələ kimi dayanır.

Psixologizm probleminin ayrıca olaraq tədqiqata cəlb edilməsi və çözülməsi bir tərəfdən elmi-filoloji fikrin araşdırmaları və təcrübələri, digər tərəfdən konkret bədii materialın – İlyas Əfəndiyevin dram yaradıcılığı nümunəsində aparılmış müşahidələr əsasında müəyyənləşən bir sıra elmi qənaətlərin, nəticələrin yaranmasına təkan verir. "İ.Əfəndiyev romantik nəsr əsərləri ilə bərabər, həmçinin insan ruhunu oxşayan, onu təlatümə gətirən mürəkkəb taleli obrazların mükəmməl səhnə təcəssümünü verən pyeslər də yazmışdır. …Sənətkarın "Sən həmişə mənimləsən" pyesinin ardınca "Mənin günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər"

[4] Alışanov Ş. Poema: janrın imkanları. Sosialist realizmi müasir mərhələdə. Bakı: Elm, 1988, s.158.

və başqa bu kimi dram əsərlərində”[5] lirik-romantik psixologizm ön planda dayandı.Dram janrının tələb və prinsiplərindən irəli gələn, onun spesifik cəhətini özündə ehtiva edən “emosiyaların, ehtirasların canlı ifadəsi olan monoloq, dialoq və replikalar, psixoloji aləmin geniş izahı olan remarkalar”da[6] müşahidə olunan psixologizm “həyatın…qeyri-adi, gözlənilməz, adi şüurla qavranıla bilinməyən mahiyyətini, dərinliyini obraz”lar[7] aləmində canlandıran İ.Əfəndiyevin fərdi yaradıcılıq üslubuna malik lirik-romantik cəhəti ilə diqqəti çəkir. Dramaturqun “həyat təəssüratı qüvvətli olduğundan, o, taleyi bir-birinə oxşayan, amma hər birinin öz aləmi, öz iztirabı … olan … surətlər yarat”mışdır[8].

Bu baxımdan İ.Əfəndiyevin dramlarında estetik həllini tapan psixologizm “insan taleyinin, arzu ilə imkan arasındakı ziddiyyətlərin, bu ziddiyyət uçurumunu adlamaq istəyən qəhrəmanın düşdüyü dramatik vəziyyətlərin və çırpıntıların təsvir”[9] və təhlilidir. Bu təsvir və təhlildə isə dramaturqun qəhrəmanları “özlərini həyatın axarında qarşılıqlı münasibətlərdə, danışıqlarında, əməllərində tanıdırlar” [10]. Bünövrəsi M.F.Axundovla başlanan milli dramaturgiyamızda psixologizm lirik, romantik, satirik, komik, tragikomik, şərti-metaforik olmaqla yanaşı milli, ictimai, fərdi, sosial, xalq-kəndli, bəşəri-dünyəvi hiss-düşüncələr, davranışlar, münasibətlər üzərində köklənən əzəmi fərdi-sosial cəhət ilə diqqəti çəkir.Məsələn, M,F,Axundov dramaturgiyasında müşahidə olunan psixologizm milli, fərdi psixologizm olmaqla bərabər komik, satirik psixologizmin bariz nümunəsini özündə ehtiva etdiyi halda, Mirzə Cəlil dramaturgiyasındakı psixologizmin mahiyyət və məzmununda bütöv xalq-kəndli psixologiyası dayanır. Buradakı psixologizm tragikomik və satirik planda əks etdirilməsi ilə diqqəti çəkir. H.Cavid dramaturgiyasındakı psixologizm fəlsəfi-romantik, şərti-metoforik, mistik mahiyyətli, bəşəri, dünyəvi hiss və düşüncələr fonunda dayanan əzəmi-fərdi-sosial psixologizmi ilə şərtlənirsə və buradakı psixologizm ciddi-dramatik və faciəvi planda təqdim olunursa, Ü.Hacıbəyov dramaturgiyasında əksini tapan psixologizm milli mahiyyətli, satirik planlıdır. Problemə bu baxımından yanaşdıqda İ.Əfəndiyev dramaturgiyasındakı psixologizm lirik-romantik, fərdi-sosial mahiyyətli, dramatik planlı psixologizmi ilə şərtlənir.

Dissertasiyada mövzunun aktuallığını şərtləndirən amillərdən ən başlıcası yuxarıda qeyd olunan cəhətlərlə müşayiət olunur.

---

[5] Turaboğlu X. «Sən həmişə mənimləsən»dən «Sən həmişə bizimləsən»ə qədər // Azərbaycan, 2001, №7, s. 186.
[6] Abbasova N. Cəfər Cabbarlı dramaturgiyasında söz. Bakı:Yazıçı, 1983,s..46
[7] Salmanov Ş. Tənqidi fikrin üfüqləri. .// Azərb.SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. Bakı: Elm, 1989, № 3 səh.115.
[8] Xəlilov P. Nəsrimizin üfüqləri. Bakı: Yazıçı, 1982,s.52
[9] Vahabzadə B. Səməd Vurğun. Bakı: Gənclik, 1984, s.278
[10] Şərifova S. İlk Azərbaycan romanları. Bakı: Elm, 1998, s.89

**Elmi yenilik.** Dissertasiyanın elmi yeniliyini şərtləndirən amillər sırasında milli ədəbiyyatşünaslıq tarixi baxımdan psixologizm probleminin öyrənilməsi istiqamətində ilk olaraq forma və məzmun cəhətdən yeni aspektdə sistemli araşdırma aparılır, çağdaş nəzəri-elmi fikir nailiyyətlərinə söykənərək yeni baxış nümayiş etdirilir. İlk dəfə psixologizm ayrıca problem kimi izlənilməklə geniş və əhatəli tədqiqata cəlb edilərək elmi-nəzəri konseptual şərhini tapır. Psixologizm probleminin folklordan üzü bəri ədəbiyyat tarixi kontekstində alınaraq əsərdə bədii-estetik şərtini yerinə yetirən cəhətinə aydınlıq gətirilir, nəzəri təsnifatı aparılır, tipinə, xarakterinə görə elmi müddəalar əsasında onun başlıca yeri, mövqeyi təhlildən keçirilir. Dramaturgiyamızda, onun görkəmli nümayəndəsi olan İlyas Əfəndiyevin yaradıcılığı üzərində aparılan müşahidələr əsasında psixologizmi şətləndirən bədii üsul və vasitələrin konkret elmi təsnifatı müəyyənləşir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın əsas tədqiqat obyektini Azərbaycan dramaturgiyası tarixində özünəməxsus yer tutan İlyas Əfəndiyevin yaradıcılığı təşkil edir. Tədqiqatın əsas predmeti dramaturgiyamızda, xüsusən sənətkarın yaradıcılığı üzərində aparılmış müşahidələr əsasında müəyyənləşən və çağdaş ədəbiyyatşünaslığın son nailiyyətləri və təcrübələrinə istinadən yeni təfəkkür işığında tədqiqata cəlb edilən psixologizm probleminin elmi-metodoloji baxımdan yeni aspektdə öyrənilməsi ilə şərtlənir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işində aşağıdakı vəzifələrin kompleks halında yerinə yetirilməsi qarşıya elmi məqsəd qoyulmuşdur:

– psixologizm probleminin qoyuluşu söz sənətinin yaranışından, ilkin dövrlərindən və ya folklordan üzü bəri ədəbiyyat tarixi kontekstində izlənilməklə onun geniş, əhatəli, fundamental, əsaslı araşdırılması və öyrənilməsinə nail olmaqla elmi-nəzəri konseptual şərhini vermək;

– psixologizm probleminin çözülməsində bir sıra müəlliflərin fikir, mülahizələrində üzə çıxan elmi müddəalarını nəzərdən keçirərək təhlilə çəkməklə onları birləşdirən ümumiləşdirici ortaq qənaətlərini tapıb öyrənilməsinə və

– söz sənətinin üzvi, tərkib hissəsi kimi izlənilən psixologizmin əsərdə başlıca yeri, mövqeyini aydınlaşdıraraq bədii-estetik şərtinin yerinə yetirilməsində müəyyən olunan növü, tipi ilə şərtləndiyini elmi qənaətlər əsasında üzə çıxarmaq;

– dramaturgiyamızda, xüsusən İlyas Əfəndiyevin əsərləri nümunəsində aparılan müşahidələr və elmi-filoloji fikrin bu sahədə apardığı təcrübələrinə və qənaətlərinə əsasən psixologizmi şərtləndirən bədii üsul və vasitələri müəyyən etmək.

**Nəzəri-metodoloji əsası.** Dissertasiya işində elmi təhlil, tarixi-müqayisəli metod əsas götürülmüşdür.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Tədqiqatın başlıca müddəa və nəticələrindən ali, orta ixtisas və ümumtəhsil məktəbləri üçün nəzərdə tutulan ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi üzrə proqramların, dərs-

liklərin, elmi-metodik vəsaitlərin yazılmasında, filologiya fakültələrində, müvafiq xüsusi ixtisas kursların və ədəbiyyat nəzəriyyəsinin tədrisində və seminarlarda bu mövzu ilə bağlı araşdırmalarda istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin filologiya fakültəsinin Elmi Şurasında təsdiq olunmuşdur. Əsər həmin Universitetin Klassik Azərbaycan Ədəbiyyatı tarixi kafedrasında işlənib hazırlanmışdır.

Tədqiqatın əsas məzmunu və başlıca müddəaları elmi nəşrlərdə işıq üzü görmüş məqalələrdə əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

## Dissertasiyanın məzmunu

Dissertasiyanın "Giriş"ində mövzunun aktuallığı, elmi yeniliyi əsaslandırılır, tədqiqatın obyekti və predmeti elmi-nəzəri əsası ilə müəyyənləşdirilir, dissertasiyanın məqsəd və vəzifələri, nəzəri və praktiki əhəmiyyəti göstərilir, işin aprobasiyası haqda məlumat verilir.

Dissertasiyanın I fəsil **"Ədəbi-tarixi, nəzəri-estetik fikirdə psixologizm**" adlanir. Bu fəsil 2 bölümdən ibarətdir. Fəslin "**Psixologizm xarici müəlliflərin elmi araşdırmalarında**"adlı birinci bölümüdə psixologizm problemi ilə bağlı onu bədii-estetik prinsip, kateqoriya, keyfiyyət kimi müəyyənləşdirən və özünəməxsus konsepsiya ilə çıxış edən xarici müəlliflərin elmi araşdırmalarına diqqət yetirilir. Tədqiqatdan aydın olur ki, L.Qinzburq[11], L.S.Vıqotski[12], N.A.Qulyayev[13], A.İezuitov[14], A.Pavlovski[15], Y.Andreyev[16], A.Britikov, M.Şatalin[17], A.Smorodin[18], L.Dementeva[19],

[11] Гинзбург Лидия. О психологической прозе. Ленинград. Художественная литература. Ленинградское отделение, 1977, 443 стр.; ГинзбургЛидия. О старом и новом. Статьи и очерки. Советский писатель. Ленинградское отделение, 1982, 424 стр.

[12] Выготский Л.С. Психология искусства. Москва: Педогогика: 1987,344 стр.

[13] Гуляев Н.А. Теория литературы. Москва: «Высшая школа»,1985,271 стр.

[14] Иезуитов А. Проблема психологизма в естетике и литературе / (В книге: «Проблемы психологизма в советской литературе»), в стр.39-57.

[15] Павловский А. О психологическом анализе в советской литературе (В историграфическом аспекте) / В книге «Проблемы психологизма в советской литературе», в стр. 331-371

[16] Андреев Ю.Человек в мире поиски и утверждение приципов социально-психологического анализа в советской литературе 20-30-годов / В книге: «Проблемы психологизма в советской литературе», Ленинград: 1970, в стр.58-101, 396 с.

[17] Бритиков А., Шаталин.М. Становление психологизма в «деревенской» прозе (20 начало, 30-х годов) / В книге: «Проблемы психологизма в советской литературе», в стр.102-149.

V.Krılov[20], N.Qroznova[21], V.Protçenko[22], V.Baytç[23], K.Kurova[24], Y.Boryev[25], A.Zis [26], S.S.İmixelova[27], D.Zatonski[28], F.Fellini[29], İ.A.Zaytseva[30] və başqalarının əsərlərində psixologizm maraqlı cəhətləri ilə təhlilə çəkilir, aydın elmi-nəzəri baxış nümayiş etdirilir. Bu baxımdan A.İezuitov psixologizm probleminin kompleks halında öyrənilməsini xüsusi olaraq önə çəkir. A.İezuitov bu qənaətdədir ki, psixologizm, məzmun və formanın daxili qatını təşkil edir və alt qatda gizlənən daxili aləmin və həyatın bədii-estetik ifadəsinə çevrilir. Psixoloji əksetdirmənin həllində qabarıq şəkildə özünü göstərən yazıçı şəxsiyyəti, onun fərdi həyat təcrübəsi, zəngin biliyə və yaradıcılıq prosesinə və həyat təcrübəsinə əsaslanan püxtələşmiş psixoloji biliyi və həyatı bədii zəmin yaradır[31].

A.İezuitov psixologizm probleminin bədii-estetik prinsip və keyfiyyət kimi öyrənilməsində 3 (üç) mühüm cəhətə diqqət yetirməyi elmi-metodoloji

---

[18] Смородин А., Становление социалистической личности и литература 30-х годов. (Очерк, рассказ, роман) / В книге «Проблемы психологизма в советской литературе», в стр. 150-196

[19] Дементьева Л. Из наблодюдений над мастерством Горького – психолога (жизнь Клима Сомгина) / В книге «Проблемы психологизма в советской литературе». В стр. 197-222.

[20] Крылов В. Консепция нового человека и принципы раскрытия внутренного мира героев у Л.Леонова / В книге: «Проблемы психологизма в советской литературе». в стр.223-253

[21] Грознова Н. Из наблюдений над особенностями психологизма в трилогии К.Федина (в связи с проблемой исторического времени Л.Леонова) / В книге «Проблемы психологизма в советской литературе». в стр.254-282.

[22] Протченко В. Человек и его труд в современной повести о деревне. В книге «Проблемы психологизма в советской литературе», в стр.293-330.

[23] Байтц В. (ГДР) Заметки о психологическом анализе в современной советской прозе / В книге: «Проблемы психологизма в советской литературе», в стр.283-292.

[24] Курова.К. Внесюжетные элементы и внутренний мир героя. / В книге «Проблемы психологизма в советской литературе», в стр.372-394

[25] Boryev Y. Estetika. Bakı: Gənclik,1980, 222 s.

[26] Зись А. Исскуство и эстетика. Москва: «Искусство», 1975, 448 стр.; Zis A. Estetikada konfrantasiyalar, Bakı: Azərnəşr, 1989, 256 s.

[27] Имихелова С.С. Современный герой в русской советской драматургии 70-х годов. «Наука», Сибирское отделение, Новосибирск: 1983,128 с.

[28] Затонский Д. Искусство романа и XX век. Художественная литература. Москва: 1973, 536 с.

[29] Феллини Федерико. Сборник.. Составление сборника и коментарии Г. Богемского. Италянский текст перевела А. Богемская. «Искуство», Москва: 1968, 288 с.

[30] Зайцева И.А. Особенности художественного психологизма в романе М.Ю.Лермонтова «Герои нашего времени» // «Филологические науки», 1982, № 2 (128), Москва: «Высшая школа»,с. 50-58.

[31] Иезуитов А. Проблема психологизма в естетике и литературе / (В книге: «Проблемы психологизма в советской литературе»). səh.52

baxımdan zəruri hesab edir. Müəllifin nəzərincə: 1. Psixologizm söz sənəti ilə birlikdə doğulur və bədiiliyin təsdiqində onun üzvi hissəsi kimi çıxış edərək insanı bütünlüklə daxili aləmi ilə birgə alıb öyrənir. Bu baxımdan psixoloji analiz bədii düşüncəyə ayrı-ayrı tərəfləri ilə daxil olub öyrənilə bilər. Məsələn, a) xarakter cizgilərinin açılması və ifadəsi; b) cəmiyyətdəki münasibətlərin və məişət qayğılarının xarakterə təsiri; c) hissi hərəkətlər; ç) ehtirasların analizi. Bu mənada psixologizm və psixoloji analiz sənətin əsl daxili mahiyyətinə çevrilir. 2. A.İezuitovun nəzərincə, psixologizm bədii yaradıcılığın nəticəsi kimi meydana çıxır. Psixoloji analiz, psixologizm burada müəllif psixologiyası, onun personajları, geniş mənada cəmiyyətin psixologiyası (sosial qrup, epoxa) vəhdət halında birləşərək öz növbəsində müəllif şəxsiyyətinin və yaradılmış obrazların, qəhrəmanların ümumiləşmiş bədii ifadəsində aşkarlanır. Bu cəhətdən psixologizm bədii yaradıcılığın qnoseoloji məna kəsb etməsi ilə əsas amil olaraq önə çəkilir[32]. 3. A.İezuitovun yanaşmasına əsasən psixologizm ictimai şüur formalarından biri olaraq estetik prinsip kimi onun üzvi hissəsini təşkil edir, inikas olunan predmetin və sənətin nəticəsi kimi müəyyənləşərək dərk olunur. Bu halda psixologizm bədii yaradıcılığın üzvi hissəsi kimi onun əsas məqsəd və vəzifələri yerində çıxış edir[33].

A. İezuitovda olduğu kimi, L.Vıqotski də düşünür ki, sənətin spesifik cəhətini, onu başqa ideoloji formalarından ayıran tərəflərini aydınlaşdırmaq üçün ilk növbədə psixoloji analizə ehtiyac duyulduğu qaçılmazdır.Bu baxımdan sənət xüsusi olaraq insanın, cəmiyyətin, psixiki sferasını, ən əsası isə ondakı hisslərin sferasını sistemləşdirib öyrənir və öyrənilən psixiki, hissi sferalar isə sənətin bədii imkanları vasitəsi ilə insanı həyata çağırır, zəruri və vacib sayılan ayrı-ayrı ideoloji formaları yiyələnməyi təlqin edir [34].

Vıqotskinin nəzərincə, sənət elmdən problemə spesifik yanaşma tərzi, metodu ilə, əsasən psixoloji hiss, həyəcan formasında yanaşma tərzi ilə fərqlənir. Psixoloji proses mexanizmində bədii hiss, həyəcan isə obraz qismində çıxış edir. Bu baxımdan emosiya, hiss, həyəcan, bədii obraz yaradıcılığında mühüm rol oynayır [35]. Əsərdə inikas etdirilən xüsusi emosiya forması lirik və obrazlı olmaqla bədii ifadə vasitəsi kimi çıxış edir. Buradakı emosiya hər şeydən əvvəl qəlb həyatında formalaşaraq əsərin ümumi harmoniyasını özündə birləşdirən xüsusi çəkiyə malik ideya yükünü daşıyır, qəlbdəki proses lirik və obrazlı olmaqla emosiya forması kimi əsərdə psixoloji əməliyyatı yerinə yetirərək müəllif üçün ideyanın açılmasına zəmin yaradır[36].

Vıqotskinin təklif etdiyi "əsərdə inikas etdirilən xüsusi emosiya forması" kimi liriklik modeli ilə yanaşı, həm də, fikrimizcə, bu daha məntiqli olardı ki,

---

[32] Yenə orada,s.39
[33] Yenə orada,s.10
[34] Выготский Л.С. Психология искусства.s.15
[35] Yenə orada,s.31-33
[36] Yenə orada,s.37

satirik, dramatik, faciəvi, sentimental, mifik cəhətləri də "əsərdə inikas etdirilən xüsusi emosiya forması"kimi qəbul etmək olar. Vıqotskinin digər fikri ilə də razılaşmaq yerinə düşər ki, həqiqətən bədii əsərdən alınan nəticə, qənaət isə fikri prosses müqabilində, intellektual əməliyyatın sayəsində meydana çıxır[37]. Burada bir fikrə aydınlıq gətirmək istəyirik. Qəlbdəki prosesdə özünü göstərən lirik xüsusiyyətlə yanaşı müxtəlif psixoloji situasiyaya müvafik mahiyyət və məzmun etibarilə müəyyən psixoloji vəziyyəti və ya məqamı ifadə edən digər münasib anlayışlar mövcuddur. Qəlbdəki proses əsərdə eyni zamanda bədii-estetik şərtini yerinə yetirən dramatik, faciəvi, komik, satirik, tragikomik kimi bədii ifadəsini tapır. Obrazlı olmaq xüsusiyyəti isə onları birləşdirən ümumi bədii keyfiyyət və cəhətidir.

A.İezuitov, L.S.Vıqotski kimi, Lidiya Ginzburq da psixologizm, psixoloji analiz məsələsi ilə bağlı aydın elmi-nəzəri və orijinal mühakimələri ilə diqqəti çəkir. Müəllifin nəzərincə, ədəbi psixologizm hər şeydən əvvəl, qəhrəmanın təkrar olunmayan və gözlənilməz davranış və hərəkətlərindən başlanır və yaranır[38]. Psixoloji analiz müəllif düşüncəsində, həm qəhrəmanların özünütəhlilində, həm onların jestlərində, hərəkət və davranışlarında özünü göstərir.[39].

Yuri Boryevin mülahizələrində bədii əsərin növü, tipinə görə əsasən iki ayrılan fərqli cəhəti ilə seçildiyi önə çəkilir: a) intellektual analiz – əsər- konsepsiya; b) psixoloji analiz. Müəllifə görə, intellektual əsərdə adətən personajlar müəllif fikri rolunu oynayır. Onun bədii konsepsiyasının müxtəlif cəhətlərini ifa edirlər[40]. Burada problemlə əlaqəli mühüm bir sual meydana gəlir. Psixoloji analizdə qəhrəmanların davranışı, obrazlar aləminin hissi-emosional vəziyyəti müəllif fikri, ideyasının açılmasına xidmət etmirmi?!

Yuri Boryevin nəzərincə, intellektual əsər sənətkarın konseptual-fəlsəfi təfəkkür tərzinin müəyyənləşdirdiyi ideyalar dramıdır [41]. Müəllifin qənaətinə bir iradımız var. Bədii əsərin ayrılmaz üzvi hissəsini təşkil edən psixoloji analiz və ya psixologizm bədii-estetik keyfiyyət və prinsipi kimi onun mahiyyətcə şərtini yerinə yetirən lirik, romantik, mifik, mistik, şərti-metaforik, realist, satirik, komik inikası ilə yanaşı insan davranışı, hərəkətlərində, onun hiss, düşüncələrində və ya ətraf aləmə münasibətində müşahidə olunan intellektual davranışların, münasibətlərin təhlili də eyni zamanda psixoloji analiz, təhlilin bədii estetik ifadəsidir. Obrazlar aləminin hissi-emosional vəziyyəti, onların ətraf aləmə münasibətində özünü göstərən təhlildə özünü və ətraf aləmi hiss edib yaşamaq və dərk etmək cəhdi psixoloji təhlilin, eyni zamanda əqli-intellektual təhlilin bədii özünüifadə forması kimi meydana çıxır. Əsərin bədii tərkib və təşkilində intellektuallıqla psi-

---

[37] Yenə orada,s. 38
[38] Гинзбург Лидия. О психологической прозе.s.286
[39] Yenə orada,s.330
[40] Boryev Y. Estetika.s.169
[41] Yenə orada,s.169

xoloji analiz bir küll, vəhdət halında qovuşaraq gerçəkləşir və bədii həyat qazanır. Bədii əsərdən alınan ideya, qənaət özü də psixoloji analizin, həmçinin intellektual-fikri analiz, əməliyyatın nəticəsi kimi reallaşır.

Yuri Boryev hesab edir ki, psixoloji əsər…insan qəlbinin dialektikasını, dünyanın və şüurun qarşılıqlı əlaqələrini açırsa, intellektual əsərin müəllifi əsaslı sosial problemlərin…dünyanın analizini verməyə cəhd göstərir. İntellektual əsərdə müəllifə görə rəmzi fikir, ibrətli hekayələr və tarix öndə dayanır. İntellektual əsərdə həmçinin Boryevin qənaətincə, «təfəkkürün simvolikliyinin spesifikası da elə bundadır ki, müasirlikdən uzaqlaşma burada düzxətli yox, əyrixətli hərəkət şəklində…baş verir və bu artıq uzaqda, keçmişdə qalmış bir fikri, mənanı yenidən müasirliyə qaytarır» [42]. Düşünürük ki, insan qəlbinin dialektikası, dünyanın və şüurun qarşılıqlı əlaqələri psixoloji baxımdan təhlilində eyni anda fikri-intellektual analizin bədii təqdimi kimi üzə çıxır. Eləcə də əsaslı sosial problemlərin və dünyanın bədii analizi ilk öncə psixoloji baxımdan əqli-fikri-intellektual təhlildə araşdırılır. Rəmzi fikir, ibrətli hekayələr və tarixi fakt məsələsi burda mifik düşüncə, şərti-metaforik üslub, didaktik-tərbiyəvi cəhət və tarixi, əqli, intellektual tipli əsərlər isə bədii-estetik keyfiyyət, prinsip kimi meydana çıxan psixoloji təhlil və ya psixologizmin növü, tipi tək şərtlənir.

Yuri Boryevin təqdim etdiyi intellektual əsər tipinə əsaslansaq, Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan çoxsaylı nümunələr və müəllif adlarını göstərmək olar. Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli əsərlərində müşahidə olunan mətnaltı fikirlər, rəmzi ifadələr, ibrətli hekayətlər əsaslı sosial problemlərin, dünyanın analizi, tarix, sənətkarın konseptual təfəkkür tərzinin müəyyənləşdirdiyi ideyalar dramı və bu baxımdan personajların müəllif fikri rolu oyanması, onun bədii konsepsiyasının müxtəlif cəhətlərini ifadə etməsi Yuri Boryevin təqdim etdiyi intellektual əsər tipinin tələblərinə cavab versə də, eyni zamanda psixoloji analiz tipinin ən mühüm əlamətləri qovuşaraq sıx vəhdət halında üzə çıxır. Obrazların daxili yaşantısı, hissi-emosional vəziyyəti ilə intellektual davranışların, münasibətlərin, düşüncələrin bir küll halında təqdimi həmin tarixi ədəbi şəxsiyyətlərin əsərlərində yüksək bədii estetik keyfiyyəti ilə diqqəti çəkir.Deməli, Y.Boryevin mütləqləşdirdiyi intellektuallıqla psixoloji analizin bədii əsərdəki mövqeyi heç də ayrı deyil, əksinə, qarşılıqlı və sıx əlaqədə bütövləşərək meydana çıxması əsas cəhət kimi öndə dayanır.

Bu baxımdan, xarici müəlliflər psixologizm probleminin bir neçə istiqamətində elmi araşdırmalar apararaq öyrənilməsinə cəhd göstərmişlər. Araşdırmalara əsasən bu qənaətə gəlmək olur ki, bədii əsərin daxili qatını özündə ehtiva edən psixologizm müəllif psixologiyası, onun personajları, geniş mənada, cəmiyyətin psixologiyası (sosial qrup, epoxa) vəhdət halında birləşərək öz

[42] Yenə orada, s.169

növbəsində müəllif şəxsiyyətinin və yaradılmış obrazların, qəhrəmanların ümumiləşmiş bədii ifadəsində aşkarlanır. Bu isə ilk növbədə, o vaxt reallaşır ki, qabarıq şəkildə özünü göstərən yazıçı şəxsiyyəti, onun fərdi həyat təcrübəsi, zəngin biliyə və yaradıcılıq prosesinə və həyat təcrübəsinə əsaslanan püxtələşmiş psixoloji biliyi və həyatı bədii zəmin yaradır.

Fəslin "**Psixologizm Azərbaycan müəlliflərin elmi araşdırmalarında**" adlı ikinci bölümündə Azərbaycan alimlərinin bu sahədə apardığı tədqiqatlar və ya onların elmi-nəzəri mülahizələri təhlilə çəkilir. Aydın olur ki, Azərbaycan müəlliflərdən M.C.Cəfərov, C.Cəfərov, K.Talıbzadə, S.Əsədullayev, X.Əlimirzəyev, B.Nəbiyev, Yəhya Seyidov, M.Adilov, Y.Qarayev, Elçin, A.Səfiyev, Y.İsmayılov, İ.Vəliyev, T.Mütəllimov, C.Nağıyev, T.Hüseynoğlu, Ə.Bayramov, A.Nəbiyev, M.Qasımlı, N.Şəmsizadə, Q.Bayramov, B.Əhmədov, İ.Rəhimli, M.Əlizadə, A.Dadaşov, A.Məmmədov (Əmrahoğlu), M.İmanov, Ə.Ələkbərli, V. Verdiyev (Sultanlı) və digərləri bu və ya digər münasibətlə psixologizm, psixoloji təhlil məsələsinə toxunaraq ümumi nəzər yetirməklə yanaşı, eyni zamanda problemə elmi-nəzəri konseptual yanaşmaları ilə diqqəti çəkir.

Xalid Əlimirzəyev psixologizm, psixoloji təhlil, psixoloji xüsusiyyətin ədəbiyyatımızda tarixən mövqeyinə, onun nəzəri-estetik dərkinə xüsusi olaraq önəm verir, doğru olaraq xatırladır ki, psixoloji xüsusiyyət, təhlil heç də kənarda deyil, əsərdə özünü göstərən bədii idrakın, təfəkkürün mürəkkəb psixoloji təkamülündən yaranan ciddi keyfiyyət dəyişikliklərindən, onun ifadə və təsvir çalarlarının yeni rəng, boyalarla təqdimindən başlanır. Bunu müəllif sənətkarlığın məziyyəti kimi dəyərləndirir.

Alim yazır: «Psixoloji xüsusiyyət, ədəbiyyatımızda yeni bir anlayış deyildir… Onun ədəbiyyatımızda dərin tarixi kökləri və özünəməxsus ənənələri vardır. Söhbət bədii yaradıcılıqda psixoloji anlayışdan daha çox onun məzmununda, mahiyyətində baş verən ciddi keyfiyyət dəyişikliklərindən, ifadə və təsvir çalarların yeni rənglərlə, boyalarla zənginləşməsindən gedir. Bu yenilik, hər şeydən əvvəl, zamanın ruhu ilə adamlarımızın idrakında, təfəkküründə, mənəvi aləmində baş verən mürəkkəb psixoloji təkamüllə bağlıdır… Psixoloji təəssürat sənət əsərlərinə kənardan gətirilib daxil edilmiş bir xüsusiyyət deyildir. O, obrazların mənəvi-psixoloji aləminin real təzahürü, hadisələrin, bütünlükdə bədii təsvirin daxili keyfiyyəti və sənətkarlığın əsas məziyyətlərindən biri kimi meydana çıxır[43].X.Əlimirzəyevin digər əsərlərində də[44] psixololgizm, psixoloji təhlil məsələsinin bu və ya digər cəhətdən problemin mühüm tərəflərinə aydınlıq gətirilir.

C.Nağıyev "Kitabi-Dədə Qorqud"da psixologizm" adlı məqaləsində probleminin öyrənilməsi istiqamətində həmkarı X.Əlimirzəyevin mövzu ilə

---

[43] Əlimirzəyev X. Bədii həqiqət uğrunda. Bakı: Yazıçı, 1984, s. 204-205

[44] Əlimirzəyev X. «Kitabi- Dədə Qorqud» dastanında şəxsiyyət və cəmiyyət problemi. Bakı: Elm, 2000, 84 s.; Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası. Bakı: Gənclik, 2001, 354 s.

bağlı fikirlərini təsdiqləyən bəzi mühüm məqamlara aydınlıq gətirir. Alim haqlı olaraq problemin çözülməsində ilk öncə, qədim dövrlərin folklor, əsatir nümunələri, o cümlədən, "Kitabi-Dədə Qorqud" dastanı üzərində apardığı müşahidələrə geniş yer verir və bu istiqamətdə elmi təhlillərini davam etdirərək maraqlı elmi nəticələrin əldə olunmasına nail olur.

C.Nağıyev yazır: "hər bir xalqın folklorunda və əsatirində qədim dövrlərdən başlayaraq insanın mənəvi aləminin təsviri həmişə diqqət mərkəzində olmuş, onun hiss və həyəcanı, sevinc və kədəri, sevgi və nifrəti, eləcə də çətinliyə düşərkən tərəddüdləri, götür-qoy etməsi, ruhi sarsıntılar keçirməsi bədii söz sənətinin özəyini təşkil etmişdir. Çox mürəkkəb, zəngin və maraqlı insan psixologiyasının açılması, bədii əsərlərin ideya məzmununu, təsvir formalarının və təsir qüvvəsinin güclənməsinə, sənətkarlığının dərinləşməsinə səbəb olmuşdur"[45]. Bu baxımdan C.Nağıyev "Kitabi-Dədə Qorqud"da müşahidə etdiyi psixologizm probleminin qoyuluşu və öyrənilməsində 7 mühüm cəhətə diqqət yetirir: a) xalq psixologiyası; b) dramatizm – vəziyyətin gərginliyi: ağlamaq-yas tutmaq; sevinmək (qaç-qaç gülmək); c) yuxugörmə; ç) əvvəlcədən duyma – ürəyədamma; d) oğul öldürmə; e) qeyrət, namus, şərəf; ə) dəlisovluq psixologiyası.[46] Fikrimizcə, C.Nağıyevin təqdim etdiyi yuxarıda qeyd olunan 7 mühüm cəhət nəinki "Kitabi-Dədə Qorqud"da, eləcə də, bu ədəbi abidə daxil olmaqla bütünlüklə ədəbiyyat tarixi kontekstində psixologizm probleminin öyrənilməsi istiqamətində mühüm addım sayıla bilər.

Tanınmış psixoloq-alim Əkbər Bayramov Xalid Əlimirzəyevin və C.Nağıyevin qənaətini möhkəmlədən mülahizələrində problemə elmi- metodoloji cəhətdən kompleks yanaşmaları ilə diqqəti çəkir.Müəllifin nəzərincə, sənətkarı fəaliyyətə təhrik edən hər bir şey onun beynində qavrayış, təfəkkür, təxəyyül, hiss şəklində əks olunur...bədii təfəkkür sahibi bir tərəfdən süjet xəttini fikirləşir, hadisələrin inkişaf perspektivlərini, əsərin əsas konfliktini müəyyənləşdirir, digər tərəfdən nəzərdə tutulan obrazların xarakterlərini, münasibətlərini aydınlaşdırır [47]. Alim bədii əsərdə spesifik cəhəti ilə seçilərək onun mahiyyətinə çevrilən psixoloji təhlilin əhəmiyyətinə diqqəti artırır. Müəllif hesab edir ki, «psixoloji cəhətdən əsaslandırma, daxili təhlil bədii əsərdə mühüm məsələdir, əsərin bədii təsir qüvvəsi məhz bu amilin hansı dərinlikdə həll olunmasından asılıdır»[48]. Ə.Bayramova görə, «hər bir bədii əsərin mərkəzində insan durur….bədii əsərin əsas məziyyəti, insan psixologiyasının düzgün, dərin əks etdirilməsindədir»[49].

---

[45] Nağıyev C. "Kitabi – Dədə Qorqud"da psixologizm. // Azərb. SSR Ali və Orta İxtisas Təhsil Nazirliyi. Elmi əsərlər. Dil və Ədəbiyyat. Bakı: 1976, səh.53.

[46] Yenə orada,s. 53-59

[47] Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, s.134.

[48] Yenə orada,s.136

[49] Yenə orada,s.162

Ədəbiyyatda psixoloji əksetdirmənin, xüsusiyyətin bir küll halında üzə çıxması ilə bağlı mülahizələrində konseptual yanaşmaları ilə diqqəti çəkən tanınmış folklorşünas alim Azad Nəbiyev təsdiq edir ki, «söz sənəti xalq təfəkkürünün erkən çağlarından başlayaraq inkişafın müxtəlif dövrlərini və mərhələlərini, milli məişət həyatını və xalqın milli psixologiyasını özündə əks etdirir»[50]. Alimin araşdırmalarına görə, «ağız ədəbiyyatı xalqın psixoloji dünyası, etik-estetik dünyagörüşü ilə sıx bağlı olmuş, qabaqcıl ideallar, humanist görüşlər zəminində yaranıb formalaşmış… Bədii təfəkkür inkişaf etdikcə insanın intəhasız hisslər və duyğular dünyasını əks etdirən yeni bədii nümunələr yaranmışdır. ... «erkən etnosun yaratdığı rəmzlər, simvollar sistemi, mif yaradıcılığında …hiss və emosiyaların simvolik təcəssümünü doğurur, erkən təfəkkürün intellektual səviyyəsini öyrənməyə xidmət edirdi[51].Deməkk, intellektuallıqla hisslər aləminin qovuşaq bədii ifadəsi söz sənətinin ilkin dövrlərindən başlayaraq onun ayrılmaz üzvi hissəsi kimi çıxış edir.

Bizim fikrimizcə, şifahi xalq yaradıcılıq nümunələrində özünü göstərən psixoloji təhlildə, məsələn, atalar sözü və məsəllər, yanıltmaclar, sınamalar, tapmacalarda epik və əqli intellktual-fəlsəfi psixologizm onun bədii mahiyyətinə çevrilirsə, bayatı, nağıl və dastanlarımızda lirik-romantik və ya dramatik-epik məzmuna malik psixoloji təhlil, psixologizm daha çox üstünlük qazanır. Ümumiyyətlə, ədəbiyyatı psixologizmdən kənar qavramaq mümkün deyil, o, sənətin, ədəbi həyatın daxili qanunauyğunluğunu tamamlayan və tənzimləyən bütöv, tam, vahid ədəbi estetik komponenti olaraq onun üzvi hissəsini təşkil edir. Bu baxımdan psixoloji təhlilin ağız ədəbiyyatı nümunələrində spesifik cəhətini araşdıran tədqiqatçılar haqlı olaraq hesab edir ki, «hadisələr üzərində hökmranlıq idealı ilə yaşayan insanda onları qavramaq, başa düşmək, özünə tabe etmək duyğuları yaranır. Bu duyğular isə insanın ilk inanc və etiqadlarını, ayin və mərasimlərini yaratmış, həmin çoxcəhətli düşüncə şəcərələri özünün rəngarəng modelləri ilə şifahi yaradıcılıqda əksini tapmışdır» [52].

Folklorşünas alim Məhərrəm Qasımlının qənaətləri də Azad Nəbiyevin ümumiləşmiş elmi-nəzəri konseptual müddəaları ilə tam üst-üstə düşür. Duyğuların, hissi-emosional hal və vəziyyətin, davranışların bədii mifik, mistik-estetik ifadəsi qam-şamanda daha qabarıq şəkildə mövcuddur. Şifahi xalq yaradıcılığının ayrılmaz tərkib hissəsi olan qam-şaman hadisəsi tükənməz bədii estetik təsir gücünə və dərin təlqinedici fövqəladə magik qüvvəyə (öncə duyum, yüksək ekstaz, sehr, əfsun) aparıcı, öndə olan və intellektual başlanğıca malikdir. Tədqiqatçı Qam-Şaman hadisəsinin bədii-psixoloji təhlildə onun üstün cəhətinə diqqəti artıraraq xatırladır ki, əslində «ilkinliyə, soy-kökə məxsus mifoloji dünya duyumun əsas axarları tarixi genetik özümlüyün aparıcı, hərəkətverici impulsları, etnopsixologiyanın milli spesifik keyfiyyətləri məhz

[50] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı: Turan, 2002,s.23
[51] Yenə orada, s.132
[52] Yenə orada, s. 248

Qam-Şaman dünyasında, onun ayin və mərasim strukturunda, söz və magiya aləmində hərəkət, davranış ölçülərində, gerçəkliyə münasibət biçimlərində bərqərardır»[53]. «Çoxçeşidli fəaliyyəti və hadisələrə dinamik nüfuzetmə imkanları baxımından qam-Şaman[54] müəllifin hesab etdiyi kimi, «musiqi-söz-rəqs magiyasının əsas ifaçısı və təmsilçisi olmaqla «qəbilənin, tayfanın, ümumiyyətlə, toplu halında yaşayan ibtidai icmanın müşkülünü həll edir…gələcəkdən xəbər gətirən, mənsub olduğu toplumu (etnosu) bəd ruhlardan, qorxu və bəlalardan qoruyur, xəstələrə şəfa verən bilici – yolgöstərici olaraq, icmanın ali təbəqəsinə daxil edilir. Rəhbər – idarəedici özəkdə əsas yerlərdən biri olan ruhani xadim vəzifəsinə yüksəlir»[55].

Elmi-nəzəri təsəvvürlər sisteminə görə, qam-şaman mifoloji mərasim icrasında bədii sözün gücündən estetik-psixoloji vasitə kimi istifadə edir[56]. Qam-şamançılıqda bədii söz müəyyən psixoloji təhlil, hadisə, proses, hal, məqam vəziyyətlə yüklənərək müşayiət olunduğundan onda lazım olan yüksək təlqin və ya sirayətedici qüvvənin aşkarlanmasına səbəb olur. Buradan aydın olur ki, bədii söz yüksək estetik keyfiyyət daşıyaraq bu və ya digər tərəfləri ilə meydana çıxan müəyyən psixoloji hadisə, vəziyyət, məqamdan doğulur. Psixoloji hadisə, proses, hal, məqam, vəziyyət həm yaradıcı şəxsin daxili psixoloji, mənəvi dünyası, həm də eyni zamanda yaratdığı obrazların ətraf mühitlə əlaqəli tərəflərində aşkarlanan hissi-emosional və intellektual münasibətlərin, davranışların üzvi vəhdətində gerçəklənir.

Aydın Dadaşov problemin çözülməsi istiqamətində başlanğıc olaraq Ziqmund Freydin Psixoanalizə giriş barədə mühazirələrin, psixanaliz eksperimentlərin təsiri axarında formalaşmış fikirlər üzərində qurur. Tədqiqatçının nəzərincə, «şüuraltı aləmin kodlarını bədii ifadə vasitəsinə çevirən və qloballaşmanın ilkin mərhələsini təşkil etməklə yanaşı, etnik, milli, sosial mədəniyyətdən asılı olmayaraq bütün insanların problemlərini özündə birləşdirən psixologizm ədəbiyyat və sənətə sirayət etməsinə səbəb oldu»[57]. Müəllifin qəbul etdiyi bu psixologizm anlayışında «demokratiyanın sənət ekvivalenti sayılan və müxtəlif sənət sahələri arasındakı sərhədləri dağıdaraq onların ifadə vasitlərinə yiyələnən modernist baxışa üstünlük verir»[58].

Nizaməddin Şəmsizadə psixoloji təhlillə bağlı qeydlərində həmkarı Xalid Əlimirzəyevin, C.Nağıyevin və başqalarının psixologizmi sənətkarlığın əsas məziyyəti kimi dəyərləndirən müddəalarına bərabər eyni fikri təsdiqləyən yüksək elmi nəzəri baxış nümayiş etdirir. Alim doğru olaraq bu qənaətdədir ki,

---

[53] Qasımlı M. Ozan – aşıq sənəti. Bakı: Uğur, 2003, s. 14
[54] Yenə orada, s. 14
[55] Yenə orada, s.10
[56] Yenə orada, s. 18-19
[57] Dadaşov A. Müstəqillik dövrünün dramaturgiyası, (teatr dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri). Bakı: 2005, s. 169-170.
[58] Yenə orada, s. 208

psixologizm bədii təcəssümü müəyyən edən yaradıcılıq metodunun özünəxas sənətkarlıq axtarışları ilə əlaqələnir. Tədqiqatçının nəzərincə, «qəhrəmanın zahiri təsvirindən uzaqlaşıb, daxili-psixoloji təhlilə keçid epoxası…insanı formalaşdıran həyatın, həm də onun bədii təcəssümünü müəyyən edən…yaradıcılıq metodunun sənətkarlıq axtarışları ilə bağlıdır»[59].

Arif Səfiyev də psixoloji təhlili bədii analitik təfəkkür tərzinin və ya həm də bizim fikrimizə görə, intellektual təfəkkür tərzinin əlaməti kimi düşünərək qəhrəmanın xarakterinin müəyyənləşməsində əsas cəhət hesab edir və bunu tədqiq etdiyi dövrün dramaturgiyasında özünü göstərən yeni poetik xüsusiyyəti kimi qəbul edir. Alimin nəzərincə, «bədii-analitik təfəkkür tərzinin əlamətləri olan psixoloji təhlilin güclənməsi…bü cəhətdən…həyatın özündə mövcud olan zidd meyllərin qəhrəmanın daxili hərəkətində verilməsi, bədii konfliktin mürəkkəb, ziddiyyətli, insan xarakterlərinin qarşılaşdırılmasında ifadə edilməsi, ictimai problemlərin qəhrəmanın şəxsi taleyində, beləliklə də sosial-əxlaqi məsələlərin şəxsiyyətin daxili-mənəvi aləminin güzgüsündə əks olunması dramaturgiyada özünü göstərən yeni poetik əlamətlərdəndir»[60]. Alim tədqiq etdiyi dövrün pyeslərində konfliktin artıq mürəkkəb insani münasibətlər üzərində qurulmasını müşahidə edir və aydınlaşdırır ki, «qəhrəmanın xarakterinin müəyyənləşməsi daha çox psixoloji təhlilə əsaslanır. Qəhrəmanın mürəkkəb və ziddiyyətli vəziyyətlərdən keçərək özünü dərk etməsi, bununla da müasir insanın mənəvi-əxlaqi münasibətlərin ifadəsi kimi meydana çıxır»[61]. Deməк, psixoloji təhlildə həm qəhrəmanın xarakteri müəyyən olunur, açılır, həm də eyni zamanda özünü və ətraf aləmi dərk etməyin və ya mənəvi-əxlaqi münasibətlərin bədii ifadəsi kimi şərtlənir.

İlham Rəhimli psixoloji təhlildə dil məsələsinə xüsusi olaraq önəm verir. Biz də öz növbəmizdə onun elmi-nəzəri və metodoloji yöndən məqsədəuyğun sayırıq ki, «təbii dil insanın daxili varlığının, dünyagörüşü və dünyaduyumunun, əqidəsinin, bir sözlə, psixoloji aləmin ilkin siqnalıdır…Qəhrəmanın inkişaf prosesində onun dili…psixoloji ovqatla, mübarizələrin, hadisələrin məntiqi tələbi ilə bərabər dəyişməlidir»[62]. Müəllif fikrini əsaslandırmaq üçün digər çağdaş dramaturqlarla yanaşı İlyas Əfəndiyevin yaradıcılığı üzərində araşdırmalar apararaq bu qənaətə gəlir ki, «İlyas Əfəndiyev lirik-psixoloji dramaturgiyamızın banisi olduğu kimi, səhnə əsərində lirik-psixoloji dilin ilk yaradıcısıdır». Onun nəzərincə, «... lirik-psixoloji üslub ailə-məişət, intim məsələləri, hətta ən kəskin həyat problemlərini sadə dillə, onun psixoloji imkanları ilə həll etmək üçün daha səmərəlidir. İ.Əfəndiyevin lirik-psixoloji pyesləri buna parlaq

---

[59] Şəmsizadə N.Müsbət qəhrəmanın ədəbi taleyi.Yaradıcılıq metodu məsələləri. Bakı: Elm, 1989, səh. 41-56, s. 43.

[60] Səfiyev A. Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-1980-cı illər). Bakı: Ozan, 1998,s. 7

[61] Yenə orada, s. 74

[62] Rəhimli İ. Sənət yolu, sənətkar ömrü. Bakı: Yazıçı, 1988, s. 92.

misaldır. Müəllifə görə, lirik-psixoloji üslub və janr həmçinin dramaturqun öz fərdi keyfiyyətləri olan lirik-psixoloji dilini formalaşdırır»[63]. Tədqiqatçının bir fikrini dəqiqləşdirmək istəyirik. İlyas Əfəndiyev lirik-romantik məzmuna malik psixoloji dilin, üslubun və ya müasir Azərbaycan nəsr və dramaturgiyasının inkişafına nail olan yaradıcı şəxsiyyət kimi diqqəti çəkir. Liriklik, romantiklik onun əsərlərinin və qəhrəmanların ruhuna, canına hoparaq yaşanılmış hiss və həyəcanların, düşüncələrin, davranışların, münasibətlərin romantik qatında insan həyatına daxil olur, oxucuların bədii-estetik qavrayışı və duyumuna, dünyagörüşünə təsir edən gözəl insani duyğuların yaranmasına zəmin yaradır. Fikrimizi təsdiqləyən müəlliflərdən akademik Kamal Talıbzadə İ.Əfəndiyevin yaradıcılığı ilə bağlı elmi müşahidələrinə əsasən qeyd edir: «lirik- romantik üslub İlyas Əfəndiyevin artıq fərdi üslubu kimi formalaşmışdır. Bu yaradıcılıq üslubunun formalaşmasında ədibin mövzuları, surətləri də əsas amillər kimi iştirak etmişdir»[64].

Musa Adilov da psixoloji təhlil və ya psixologizm məsələsinin öyrənilməsində bədii dilin əhəmiyyətini dəyərləndirir. O, bu baxımdan M.F.Axundov dram əsərlərinin bədii dilində müşahidə olunan psixologizm məsələsinə aydınlıq gətirir. Problemin çözülməsi istiqamətində psixoloji vəziyyətlə bağlı söz və ifadənin təkrarı, replika, nidalar, xitablar, dialektizmlər, fikirlər, mənafelər toqquşması kimi meydana gələn dialoqlarda obrazların danışıq, ifadə tərzinə görə fərqlənən cəhətlərin təhlili alimin araşdırmalarında xüsusi yer tutur[65].

Əziz Ələkbərli psixoloji təhlil və ya psixologizm məsələsinin ayrılmaz üzvi hissəsi kimi çıxış edən bədii şərtiliyin tipoloji baxımdan 3 (üç) mühüm xüsusiyyətini aydınlaşdırır: 1) subyekt şərtiliyi; 2) məkan şərtiliyi; 3) zaman şərtiliyi [66]. Psixologizmin mahiyyət və məzmununu özündə ehtiva edən bədii şərtiliyin üç mühüm cəhəti xüsusi əhəmiyyətə malikdir. Burada obrazlar aləmi, həyat materialı müxtəlif zaman və məkan daxilində müəyyən psixoloji təhlil, vəziyyət, hal, məqamda bədii təsdiqini tapır və estetik dəyərini əldə edir. Subyekt şərtiliyi psixologizmin daxili şərti bədii keyfiyyəti kimi üzə çıxır. Müəllif subyekt şərtiliyində daxili aləmin konkret hissi formada təqdimin iki cəhətinə diqqəti artırır. Bizim fikrimizcə, bu həm də psixologizm probleminin daxili şərti bədii keyfiyyəti kimi reallaşır: 1) daxili «mən» də mövcud olan qeyri-maddi səslərə (düşüncə, xəyal və s.) məhz «səs» formasında estetik don geyindirilir: daxili səs həyati səs kimi şərtlənir; 2) daxili «mən» şəxsləndirilərək konkret obraz, insan kimi əsərə gətirilir, daxii səs öz daxili məni ilə bərabər hüquqda əsərin personajlar aləminə daxil olur[67].

---

[63] Yenə orada, s.73
[64] Talıbzadə Kamal. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: 1991, s. 53
[65] Adilov M. Klassik ədəbiyyatda dil və üslub. Bakı: Maarif, 1991, s.85-99,
[66] Ələkbərli Ə. Dramaturgiyada sənətkarlıq axtarışları (bədii şərtilik), (1960-1980-cı illər). Bakı: Ağrıdağ, 1997, s. 109.
[67] Yenə orada, s. 34

Təhsin Mütəllimov Ə.Haqverdiyev əsərləri üzərində müşahidə olunan psixologizm və ya psixoloji təhlillə bağlı müəyyən bölgü əsasında mülahizələrini qurur. Tədqiqatçı Ə.Haqverdiyev nəsrində psixoloji təhlil üsulundan yalnız üç cəhəti önə çəkir: 1) birbaşa, müstəqim şəkildə müəllifin surətə verdiyi xasiyyətnamə detalları, təfərrüatları; 2) bir surətin başqası haqqındakı mülahizələri; 3) surətin özü haqqında etirafları[68].

Muxtar İmanov İ.V.Straxov, A.B.Esinə əsaslanaraq psixoloji əksetdirmənin üç məlum formasını T.Mütəllimovun şərti bölgüsündən az fərqli olaraq: 1) daxili aləmin gözlə müşahidə oluna bilən zahiri əlamətlər vasitəsilə; 2) ümumi müəllif şərhi vasitəsilə və 3) daxili düşüncələr vasitəsilə əks olunmasını xatırladaraq müasir Azərbaycan nəsrində psixologizmi məhz həmin bölgülər əsasında təyin etməyə cəhd göstərir[69].

Bədirxan Əhmədov Azərbaycan satirasının inkişaf problemlərində (1920-1980-ci illər) psixoloji analizin 3 (üç) istiqamətində təzahür etdiyini önə çəkir: 1) müəllifin satirik ifadə üsulundakı psixoloji analiz; 2) ictimai münasibətlərdə üzə çıxan xarakterin psixologizmi; 3) obrazın zahiri görkəmi ilə daxili aləminin həyat fəlsəfəsinin psixoloji analizi[70].

Beləliklə, aydın olur ki, psixologizm probleminin öyrənilməsi onun bir sıra mühüm və zəruri cəhətlərin üzə çıxmasına imkan verir. Psixologizm və ya psixoloji təhlil ədəbi-tarixi hadisə olmaqla yanaşı nəzəri-estetik amil kimi müəyyənləşərək qavranılır. Bədii əsərdə ədəbi-estetik fakt kimi müəyyənləşən psixologizm və ya psixoloji təhlil, proses, vəziyyət, hal, məqam hiss-emosiyalar, düşüncələr, hərəkətlər, davranışlar, münasibətlər, müəllif təhkiyəsi və təsviri və bədii dil şəklində üzə çıxır.

Beləliklə, bizim birinci qənaətimizə görə, söz sənəti ilə birgə doğulan (A.İezuitov), ədəbiyyatda dərin tarixi kökləri və özünəməxsus ənənələri olan (Xalid Əlimirzəyev), mifologiya, folklordan kök atıb rişələnən psixologizm və ya psixololji təhlil, hal, məqam, hadisə, proses bədii təfəkkür inkişaf etdikcə (Azad Nəbiyev, C.Nağıyev, M.Qasımlı), forma və məzmun etibarı ilə əsərdə bədii-estetik şərtini yerinə yetirməklə tipoloji baxımdan bir neçə yerə ayrılır: 1) lirik; 2) romantik; 3) dramatik; 4) epik (nəqli, informativ); 5) faciəvi; 6) fəlsəfi-intellektual; 7) mifik; 8) şərti-metaforik; 9) mistik; 10) satirik; 11) komik; 12) tragikomik; 13) memuar, avtobioqrafik və s.

Bizim ikinci qənaətimizə görə, psixologizm və ya psixoloji təhlil əsərdə bədii estetik şərtini yerinə yetirərkən xarakteri və mövqeyi baxımın-

---

[68] Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası, Bakı: Yazıçı, 1988, s. 193

[69] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm (1960-1970-ci illər). Bakı: Elm, 1991, s. 13.

[70] Əhmədov B. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-cı illər). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2005, s. 33.

dan bir neçə mühüm spesifik cəhətləri ilə şərtlənir. Bunlar aşağıdakı elmi-nəzəri şəkildə qruplaşır: 1) milli; 2) ictimai; 3) xalq-kəndli; 4) fərdi; 5) sosial; 6) bəşəri, dünyəvi hiss və düşücələr davranışlar, münasibətlər üzərində köklənən əzəmi fərdi-sosial və s.

II Fəsl "**Dram əsərləri və psixologizm**" adlanır. Bu fəsil iki bolümdən ibarətdir. Fəslin "**Milli Azərbaycan dramaturgiyasında psixologizm**" adlı birinci bölümündə araşdırmalara əsasən bu qənaətə gəlinir ki, Milli Azərbaycan dramaturgiyasında müşahidə olunan psixologizm janrın spesifik cəhətləri ilə şərtlənir. Başqa sözlə, dram əsərlərində özünü göstərən psixologizm nəsrdəki kimi həmişə adi epik təmkini, vəziyyəti ilə qalmır, buradakı psixologizm daha çox fikirlər, ehtiraslar, xarakterlər, mənafelər toqquşması fonunda meydana gəlir.

Bizim birinci qənaətimizə görə, bünövrəsi M.F.Axundovla başlanan milli dramaturgiyamızda ədəbi-estetik funksiyanı yerinə yetirən, xarakterinə, mövqeyinə, tipinə görə spesifik cəhətləri ilə fərqlənən psixologizmin bədii-estetik tələblər cəhətdən tarixən qoyuluşu əsasən aşağıdakı şəkildə müəyyənləşir:a) M.F.Axundovun dramaturgiyasında əksini tapan psixologizmin məzmununda millilik, milli-fərdi xüsusiyyətlər dayanır. Buradakı psixologizm komik-satirik fonda təqdim olunur; b) N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov dramaturgiyasındakı psixologizm milli mahiyyətli, komik-satirik, həm də ciddi-dramatik və faciəvi planda əks etdirilir; c) C.Məmmədquluzadə dramaturgiyasındakı psixologizmin mahiyyətində bütöv xalq, kəndli psixologiyası dayanır. Buradakı psixologizm tragikomik və satirik fonda təqdim olunur; ç) C.Cabbarlı dramaturgiyasındakı psixologizmdə fəlsəfi-romantik, şərti-metaforik, mistik mahiyyətli, bəşəri, dünyəvi hiss və düşüncələr dayanmaqla əzəmi-fərdi-sosial, həm də milli psixologizmdir. Buradakı psixologizm əsasən ciddi-dramatik və faciəvi şəkildə qabardılır; d) H.Cavid dramaturgiyasındakı psixologizm fəlsəfi-romantik, şərti-metoforik, mistik mahiyyətli, bəşəri, dünyəvi hiss və düşüncələr fonunda dayanan əzəmi-fərdi-sosial psixologizmdir. Buradakı psixologizm ciddi-dramatik və faciəvi planda təqdim olunur; e) Ü.Hacıbəyov dramaturgiyasında əksini tapan psixologizm milli mahiyyətli, satirik planlı; ə) S.Vurğun dramaturgiyasındakı psixologizm milli, həm də bəşəri hiss və düşüncələr fonunda gerçəklənən əzəmi-fərdi-sosial psixologizm, ciddi-dramatik, fəlsəfi-romantikplanlıdır; f) M.Hüseyn, M.İbrahimov dramaturgiyasındakı psixologizm fərdi-sosial ruhlu, ictimai psixologizm, ciddi-dramatik və satirik planlı; g) S.Rəhman dramaturgiyasındakı psixologizm fərdi-sosial ruhlu, satirik səciyyəli; ğ) İ.Əfəndiyev dramaturgiyasındakı psixologizm lirik-romantik, fərdi-sosial mahiyyətli, ciddi-dramatik planlı; h) İ.Qasımov, B Vahabzadə, Anar, N.Xəzri, Elçin, Rüstəm və Maqsud İbrahimbəyovlar dramaturgiyasındakı psixologizm fərdi-sosial mahiyyətli, ciddi-dramatik, qismən satirik planlı (Anar, Elçin); x) Ə.Əmirli, F.Mustafa, E.Mehrəliyev pyeslərində lirik-romantik və fəlsəfi, həmçinin sərt-realist və fərdi-sosial, dramatik, melodramatik (F.Mustafa) planlı;

ı) Vəfadarın pyeslərində sərt-realist, fərdi-sosial, dramatik, A.Həsənoğlu pyeslərində şərti metaforik-mifik-fəlsəfi və sərt-realist, həmçinin bəşəri, dünyəvi hiss-düşüncələr fonunda gerçəklənən əzəmi-fərdi-sosial və dramatik planlı; i) İbrahim İbrahimli dram yaradıcılığında sərt-realist qatla üzvi əlaqələnən xaotik hiss-düşüncələr, münasibətlər, davranışlar üzərində köklənərək meydana çıxan mistik mahiyyətli və fərdi-sosial, dramatik planlı və s.

Bu baxımdan bizim ikinci qənaətimizə görə, müasir Azərbaycan dramaturgiyasında, xüsusən İ.Əfəndiyevin dram yaradıcılığında müşahidə olunan lirik-romantik psixologizmi şərtləndirən üsul və vasitələr janrın spesifik poetik təcəssüm formaları ilə vəhdətdə aşağıdakı şəkildə müəyyənləşir: **1)** bədii obrazda yaddaş və onun «mən»də ifadəsi və ya özünütəhlil xarakterdə psixcloji aləmin təşəkkül üsulu kimi; **2)** bədii vəziyyət xarakterin psixoloji özünüifadə məkanı kimi; **3)** remarkada hadisə, vəziyyətin və obraz-xarakterin bədii psixoloji təsviri, **4)** daxili dialoqda bədii şərtilik psixologizmin daxili şərti bədii keyfiyyəti kimi və ya xəyali-psixoloji bədii səhnə, yaxud obraz-xarakterin real və şərti «mən»i ilə daxili söhbəti; **5)** bədii dil və ad psixoloji portretin şərti bədii işarəsi kimi. Nəzərə çatdıraq ki, qeyd olunan bədii üsul və vasitələr, bəzən, hətta qovuşaraq meydana çıxır.

İ.Əfəndiyevin dramaturgiyasında müşahidə olunan lirik-romantik psixologizm aşağıdakı pyeslərdə əksini tapır: «Sən həmişə mənimləsən» yaxud «Boy çiçəyi» (1964), «Mənim günahım» (1967), «Unuda bilmirəm» (1968), «Məhv olmuş gundəliklər» (1969), «Mahnı dağlarda qaldı» (1971), «Dağlardan gələn səs» (1976), «Büllur sarayda» (1983), «Bizim qəribə taleyimiz» (1988) və başqa bu kimi əsərlərdə qabardılaraq üzə çıxan şəxsiyyət, onun fərdi taleyi, ailə, sevgi problemi bədii forma və məzmun baxımından lirik-romantik qatda gerçəklənən psixologizmin daxili mahiyyətində estetik həllini tapır. Bu baxımdan İ.Əfəndiyevin dram yaradıcılığında müşahidə olunan psixologizmdə obrazlar aləminin ətraf gerçəkliklə bağlı hissi, emosional vəziyyəti, onların davranışları, münasibətləri məhz lirik-romantik qatda üzvi, vəhdət halında qovuşaraq ümumiləşir.

Fəslin "**Sən həmişə mənimləsən» pyesi müasir Azərbaycan dramaturgiyasında lirik-romantik psixologizmin nümunəsi kimi**" adlı ikinci bölümü İ.Əfəndiyevin bu pyesində müşahidə olunan psixologizm problemi müstəvisində araşdırmaya cəlb olunur, bu qənaətə gəlinir ki, sənətə, ədəbiyyata yeni yaradıcılıq xüsusiyyəti, üslubi keyfiyyəti ilə daxil olan «İlyas Əvəndiyev romantik nəsr əsərləri ilə bərabər insan ruhunu oxşayan, onu təlatümə gətirən mürəkkəb taleli obrazların, səhnə təcəssümünü verən pyeslər də yazmışdır.

Maraqlıdır ki, bü əsərlərin məna və məntiqini özündə ehtiva edən sənətkarın bir əsəri[71], yəni «Sən həmişə mənimləsən» pyesi istər müəllifin dramaturji yaradı-

---

[71] Turaboğlu X. «Sən həmişə mənimləsən»dən «Sən həmişə bizimləsən»ə qədər // Azərbaycan , 2001, №7, s. 186-187.

cılığında, istərsə də müasir Azərbaycan dramaturgiyasında lirik-romantik psixologizmin nümunəsi kimi maraq doğurur. Akademik Kamal Talıbzadənin müşahidələrinə görə «lirik-romantik üslub İlyas Əfəndiyevin artıq fərdi üslubu kimi formalaşmışdır. Bu yaradıcılıq üslubunun formalaşmasında ədibin mövzuları, surətləri də əsas amillər kimi iştirak etmişdir…Məhəbbət İ.Əfəndiyevin əsas mövzusu, gənclər isə qəhrəmanları, baş surətləridir. Məhəbbət bir çox mühüm sosial problemlərin həlli üçün yol açır, gənc qəhrəmanların arzu və diləkləri, onların xəyalları, ürək dünyası ilə bağlı olan əməlləri bədii problemin həllinə romantik bir ruh aşılayır; qəhrəmanların emosional özünüifadəsi bədii təsvirin ümumi fonunda üstünlük təşkil edir, onların lirik-romantik hisslərinə geniş meydan verilir»[72].

Filologiya üzrə elmlər doktoru, professor Xalid Əlimirzəyev İ.Əfəndiyevin yaradıcılıq xüsusiyyətlərindən danışarkən, «Sən həmişə mənimləsən» pyesinin yazıldığı və ya tamaşaya qoyulduğu illərdə həmin əsərin həm ədəbi materialı, həm də səhnəyə qoyuluşu, tərtibatı haqqında yazdığı resenziyasında göstərir: ««Sən həmişə mənimləsən» pyesi tam psixoloji planda yazılmış bir əsərdir. Burada aktyor tamaşaçıya demək istədiyi fikri çox hallarda sözlə deyil, hərəkətlə, üzündə və gözlərində əks olunan dərin, mənalı ifadələrlə çatdırmalıdır»[73].

Seyfulla Əsədullayev «İstedad və sənətkarlıq» adlı məqaləsində də görkəmli sənətkarın bədii yaradıcılıq xüsusiyyətlərini belə xarakterizə edir: «İ.Əfəndiyev bir sənətkar kimi hadisəçiliyə…aludə olmur; onun diqqət mərkəzində duran insan şəxsiyyəti, insan taleyi, xarakteri, adamların ictimai və psixoloji mahiyyətidir… Lirizm, romantika, psixoloji təhlil onun yaradıcılıq üslubunun ana xəttidir»[74].

Yəhya Seyidov İ.Əfəndiyev haqqında yazdığı monoqrafiyasında qeyd edir ki, «psixologizm İ.Əfəndiyev istedadının ayrılmaz keyfiyyətidir. «Sən həmişə mənimləsən»də isə bu, üslubun keyfiyyət əlamətlərindən biri olmaqdan çıxıb aparıcı mahiyyət qazanmışdır[75]. Buna görə də «Sən həmişə mənimləsən» pyesi özündən sonra yaranmış digər bu səpkili dramaturji əsərlərin ədəbi-bədii və mənəvi himayəçisinə çevrilir. Ötən əsr elmi-nəzəri-filoloji fikrin araşdırmalarında, xüsusilə, Arif Səfiyevin tədqiqatında qəhrəmanın mənəvi mövqeyinin və fəallığının ön plana çəkilməsi İlyas Əvəndiyevin dramaturgiyasında diqqəti cəlb edən xüsusiyyət kimi[76] dəyərləndirilir. Alimin müşahidələrinə görə «bu cəhət müəllifin 60-cı illərin əvvəllərində yazdığı «Sən həmişə mənimləsən» pyesindən başlayaraq bütün dramaturgiyamızda xüsusilə aydın hiss edilməkdədir [77].

---

[72] Talıbzadə Kamal. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: 1991, s.53.
[73] Əlimirzəyev X. Xarakterlər dramı. Ədəbi qeydlər, Bakı: Gənclik, 1974, s.175
[74] Əsədullayev S. İstedad və sənətkarlıq. Tarix, sənətkar, müasirlik. Bakı: Gənclik, 1975, s.102.
[75] Seyidov Yəhya. İlyas Əfəndiyev (həyat və yaradıcılığı haqqında müxtəsər oçerk). Bakı: Azərnəşr, 1975, s.143
[76] Səfiyev A. Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-1980-cı illər). Bakı: Ozan, 1998, s. 13
[77] Yenə orada, s.13

Yaşar Qarayev İlyas Əfəndiyevin dram yaradıcılığında yeni perspektivli bir istiqamətin uğurlu başlanğıcı olmaq mənasında «Sən həmişə mənimləsən» (1964) pyesinə[78] önəm verərək həmin əsəri yüksək qiymətləndirir. Bu cəhətdən bizim fikrimizcə, dramaturqun «Mənim günahım» (1967), «Unuda bilmirəm» (1968), «Məhv olmuş gündəliklər» (1969), Şıxəli Qurbanovun «Sənsiz» (1967), İmran Qasımovun «Nağıl başlananda» (1972), B.Vahabzadənin «İkinci səs» (1969), «Yağışdan sonra» (1971), «Yollara iz düşür» (1977), Nəbi Xəzrinin «Əks-səda» (1969), «Sən yanmasan» (1972), Anarın «Keçən ilin son gecəsi» (1966-67), «Şəhərin yay günləri» (1977) və başqa pyeslərdə lirik-romantik qat, üslub «Sən həmişə mənimləsən» pyesindən boy ataraq təkmilləşir, yeni məna və məzmun qazanır.Bədii obrazda yaddaş psixologiyası və onun «mən»də ifadəsi, özünütəhlil xarakterdə psixoloji aləmin təşəkkül üsulu kimi, bədii vəziyyət xarakterin psixoloji özünüifadə məkanı kimi, peyzajda dramatik psixologizmin təcəssümü və ya bu kimi məsələlər[79] yuxarıda sadalanan digər pyeslərdə məxsusi şəkildə mənalanır, özünün fərdi bədii-poetik dünyasını əldə edir, oxucuda və ya tamaşaçıda böyük təəssürat oyadır, onların əxlaqi-mənəvi həyatına daxil olur, bədii-estetik zövqünün və idealının formalaşmasına zəmin yaradır. «Sən həmişə mənimləsən» dramı bu baxımdan yuxarıda adları qeyd olunan pyeslərin insanda oyatdığı böyük təəssüratına görə aparıcı mövqedə dayanır.

Ümumiyyətlə, İ.Əfəndiyevin yaradıcılığında, xüsusən onun dram əsərlərində həyat faktı hər şeydən əvvəl yeni məna və məzmunda işıqlandırılır, böyük və dərin mətləblər, incə mənalandırmalar öz əksini tapır, "insan psixologiyasına məxsus mürəkkəblik və ziddiyyətlərə, ... daxili aləmi təhlil etməyə qüvvətli meyl"[80] onun pyeslərinin başlıca məna və məntiqini özündə ehtiva edir. Bu baxımdan həyat faktı, real gerçəklik dramaturqun bədii-estetik qavrayışındaələnərək məxsusi ədəbi yaşam qazanır.

Elmi fikir, müşahidələr israrla təsdiq edir ki, «İlyas Əfəndiyevin dram əsərlərinin daxili struktur quruluşunu diqqətlə araşdırarkən vahid bir sənət prinsipi ilə qarşılaşırıq. Bu prinsip dramaturqun özünə məxsusdur. Ona görə də həmin prinsipi fərdi yaradıcılıq prinsipi kimi də qəbul edə bilərik… O, iki fərqlənən qatı, konteksti üz-üzə qoyaraq, onların kəsişmə,toqquşma nöqtəsində yeni bir məna, qat kontekst yaradır. Belə bir üslub prinsipi hər hansı sənətkara bir neçə məqsədə çatmağa kömək edir. ... Onun kompozisiya qurumu, dil-ifadə, mövzu dairəsi, qəhrəman anlayışı uzun illər ərzində qazandığı dramaturji təcrübəsində və axtarışlarında formalaşıb[81]. Bu baxımdan İ.Əfəndiyevin «Sən həmişə mənimləsən» əsəri müasir Azərbaycan dramaturgiyasında digər pyes-

---

[78] Qarayev Y. İlyas Əfəndiyev. Bakı: Bilik cəmiyyəti, 1987, s.29
[79] Turaboğlu X. Dramaturgiyamızda psixologizm problemi (məsələnin qoyuluşuna dair). // «Elm» qəzeti, Bakı: 2000-ci il, 19 dekabr; //«Qobustan» jurnalı, 2002, №3 (119), səh.75-76.
[80] Qarayev Y., Salmanov Ş. Poeziyanın kamilliyi. Bakı: Yazıçı, 1985, s.117
[81] Rəhimli İ. Dramaturq və axtarışlar. // Azərbaycan, 1982, №2, s. 184.

lərdən fərqli olaraq mürəkkəb bədii struktura malik lirik-romantik, fərdi-sosial mahiyyətli, ciddi dramatik planlı psixologizmin nümunəsi kimi maraqlıdır. Demək lazımdır ki, «İ.Əfəndiyevin «Sən həmişə mənimləsən»ə qədərki pyeslərində fərdiləşdirmək istədiyi obrazlar öz hərəkətlərində və düşüncələrində psixoloji əsasdan heç də məhrum deyildir»[82]. «İntizar» (M.Hüseynlə birlikdə yazılmışdır) (1943), «Bahar suları» (1948), «Atayevlər ailəsi» (1954) dram əsərlərində psixologizmin bədii-estetik tələblər baxımından müxtəlif (lirik-romantik, ictimai və satirik planlı) tərəflərini şərtləndirən məqamlara, hadisə və proseslərə rast gəlmək olur. Ümumiyyətlə, İ.Əfəndiyevin yaradıcılığında, xüsusən onun dramaturgiyasında daha qabarıq nəzərə çarpan, lirik-romantik psixologizm "gerçəkliyin özünəməxsus estetik konsepsiyasının qanunauyğun nəticəsi ... kimi meydan çıx"araq[83] bütövlükdə onun sənətinin daxili mənasını, mahiyyət və məzmununu özündə birləşdirir.

III Fəsil "**Psixologizmi şərtləndirən bədii üsullar**" adlanır. Bu fəsil iki bölümdən ibarətdir. Fəslin "**Bədii obrazda yaddaş və onun «mən»də ifadəsi: özünütəhlil xarakterdə psixoloji aləmin təşəkkül üsulu kimi**"adlı birinci bölümündən aydın olur ki, dramaturgiyada psixologizmi şərtləndirən bədii üsullardan biri olan bədii obrazda yaddaş psixologiyası və onun «mən»də ifadəsi obraz-xarakterdə özünütəhlil yaratmaqla psixoloji aləmin təşəkkül üsulu kimi meydana çıxır. Buradakı psixologizm istər müasir, istərsə də tarixi mövzulu əsərlərdə bəzən lirik- romantik qatla şərtlənərək aparıcı mövqedə dayanır. Başqa sözlə, psixologizm bədii forma və məzmun baxımdan hiss və düşüncələrin, davranışların, münasibətlərin, hadisə və xarakterlərin ümumiləşmiş ifadəsində lirikliyin, lirik obraz, hadisə və düşüncələrin romantik baxışlarla, hiss-düşüncələrlə yüklənərək qovuşaq halda dərk və əks olunur. Bədii təsdiqini tapan obrazlar bu halda fərdi və sosial yanaşma tərzi mövqeyindən təhliilə çəkilir.

Psixoloji təhlildə obrazlar aləmi onu əhatə edən mühit kontekstində açıqlanaraq durulur, estetik dəyər qazanır, eyni zamanda mühit də obrazlar aləmi mövqeyindən müxtəlif baxış bucağından qavranılaraq dərk olunur və qiymətləndirilir. Bu baxımdan psixoloji təhlilin üsul və vasitələrindən biri kimi üzə çıxan daxili şüuraltı fikir axınında bədii yaddaş mühüm rol oynayır. Çözələnən hadisə, proseslər, davranışlar, münasibətlər ehtiyac duyulduğu indiki anda, məhz xatırlama, yadasalma anında yeni məna qazana bilir. İndiki anda nəql olunan hadisə, vəziyyət qəhrəmanın yaddaşında müəyyən hiss, düşüncələrin, hissi-emosionallıqla intellektuallığın vəhdətində yaranan münasibətlərin daxili-analoji-assosiasiyaların əlaqə və düzümündə aşkarlanaraq yeni dəyər qazanır.

Psixoloji təhlildə qəhrəmanın özünü və ətraf aləmi təhlil və dərk etməsi

---

[82] İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı: Elm, 1991. s.134

[83] Məhəmmədi M. Farsdilli ədəbiyyatın öyrənilməsinə dair (XVI – XVIII əsrlər). // Azərb. SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. Bakı: Elm, 1988, № 4 səh.66.

eyni anda əqli-fikri proses, intellektual analizin nəticəsi və dərki kimi şərtlənərək keçmiş və indi bədii yaddaşda əlenir.Buradakı psixoloji təhlil bədii forma və məzmun etibarı ilə lirik-romantik hiss, düşüncə, davranışlar, münasibətlər, xarakterlər üzərində qurulur. Bu baxımdan bədii obrazda yaddaş psixologiyası imkan verir ki, qəhrəman özünü və ətraf aləmi təhlildə özünü və ətraf aləmi tanıyıb dərk edə bilsin. Bünövrəsi M.F.Axundovla başlanan milli dramaturgiyamızda bədii yaddaşda çözələnən hadisə, proseslər, davranışlar, münasibətlər obrazlarda müxtəlif baxış bucağından psixoloji təhlilə çəkilir.Təhlilə çəkilən hadisə, prosesdə qəhrəmanlar özünəməxsus düşüncə tərzi ilə özünü və ətraf aləmi tanıyıb dərk etməyə çalışır. Bu isə öz növbəsində xarakterdə psixoloji aləmin təşəkkül üsulu kimi meydana çıxır. Bu baxımdan tədqiqat obyekti kimi araşdırılmaya cəlb olunan İlyas Əfəndiyevin dram yaradıcılığında yuxarıda qeyd etdiyimiz eyni vəziyyəti müşahidə etmək mümkündür.

Dramaturqun qəhrəmanı Nicat («Mahnı dağlarda qaldı») Şahnazla görüşlərin birində arxada qalan yaşanılmış ömrün çözülməsi ilə özünü və ətraf aləmi tanıyıb dərk etməyə başlayır. Nicatla Şahnazın dialoqunda qəhrəmanların hər birisi özünəməxsus fərqli düşüncə tərzi nümayiş etdirərək xarakterdə psixoloji aləmin üzə çıxmasına nail olunmuşdur:

Nicat: Bu dörd ildə mənim həyatım fırtınaya tutulmuş bir gəmi kimi idi. Dalğalar onu hey ora-bura çırpırdı. Mən bu həyatın harda, nə cür qurtaracağını bilmirdim…Ancaq necə deyərlər, başım daşdan-daşa dəyəndən sonra fikirləşdim ki, bəlkə o vaxt sənin mənə olan məhəbbətin ərköyün bir bəy qızının adicə şıltağı və ya müvəqqəti bir həvəs imiş… (Qısa pauza. Dərindən nəfəs alaraq). Doğrusu, mən sonralar, sənin kimi böyük ağa qızının yoxsul bir kəndli oğlunu sevə biləcəyini ağlıma sığışdıra bilmirdim[84].

Şahnaz isə öz növbəsində Nicatın fikirlərində müşahidə etdiyi səhv mövqeyi aydınlaşdırır. Nicatın ona qarşı hisslərində səmimi olmadığına görə qınayır:

Şahnaz: (dərin məyusluqla) Halbuki əgər sən əvvəlki kimi tanınmaz kasıb bir oğlan olaraq gəlsəydin, mən yenə də səninlə gedərdim. Həmişə dediyim kimi, lap dünyanın o başına gedərdim[85].

Nicatla Şahnaz ayrı-ayrı sosial təbəqənin nümayəndəsi olmasına baxmayaraq aralarında olan təmiz sevginin, ali, ülvi hisslərin qorunmasına can atır, düşüncə və hərəkətlərində, davranışlarında daim sadiq, səmimi və təbii olmağa çalışır, ancaq qabarıqlığı ilə üzə çıxan sosial fərq onların qovuşmasına mane olur. Maneəvi addım isə qızın qardaşı Böyük bəy tərəfindən atılır. Bu cəhətdən Böyük bəylə Şahnazın dialoqunda keçmiş və indi çözələnir. Böyük bəyin subyektiv qavrayışında ələnən hadisə, vəziyyət mənsub olduğu ağalar mühitinin ümumiləşmiş obrazı kimi bədii tədqiqata çəkilir:

---

[84] Əfəndiyev İ. Seçilmiş əsərləri. 7 cilddə. 3-cü cild. Bakı: Çinar-çap, 2002, s. 96-97
[85] Yenə orada, s.97

Fəslin "**Bədii vəziyyət xarakterin psixoloji özünüifadə məkanı kimi**" adlı ikinci bölümündən araşdırılmaya əsasən bu qənaətə gəlinir ki, dramatürgiyada psixologizmi şərtləndirən bədii üsullardan biri də dialoq və monoloqla üzə çıxan bədii vəziyyət xarakterin psixoloji özünüifadə məkanı kimi reallaşır.

Əsərdə bədii təhlil obyektinə çevrilən obraz, fərd, şəxsiyyət, onun daxili aləmi, yaşantıları, davranışları, ətraf gerçəkliyə, həyata, cəmiyyətə, dövrə, mühitə münasibəti və ya əksinə, dövrün, mühitin, cəmiyyətin fərdə, şəxsiyyətə münasibəti təqdim olunan müəyyən psixoloji proses, vəziyyət daxilində müəyyən bədii forma və məzmuna və ya əsərin ümumi bədii arxitektonikasına xidmət edən dramatik, satirik-yumoristik, nəqli-informativ və ya epik, lirik-romantik və ya sentimental, faciəvi cəhətləri ilə birgə alınaraq ümumilikdə obrazlar aləminin psixoloji durumunun özünüifadə məkanı kimi şərtlənir. Mövzuya ədəbi-bədii fikir baxımından və ya elmi-filoloji, tarixi - müqayisəli metod baxımdan yanaşdıqda M.F.Axundov, N.Vəzirov, Ə.Haqverdiyev, Mirzə Cəlil, H.Cavid, Ü.Hacıbəyov, S.Rəhman, İ.Qasımov dram yaradıcılığında özünüifadə məkanı kimi gerçəklənən bədii vəziyyətlə bağlı maraqlı nümunələr müşahidə etmək mümkündür.

İlyas Əfəndiyevin dram yaradıcılığında da müşahidə olunan bədii vəziyyət ümumilikdə obrazlar aləminin psixoloji özünüifadə məkanı kimi meydana çıxır. Məsələn, Nurcahanla Sahibin («Mənim günahım») dialoqunda izlənilən bədii vəziyyət obrazlardakı özünəxas düşüncə tərzinin və ya hərəkət, davranışlarının, ətraf aləmə münasibətlərinin müəyyən tərəfləri ilə qabardılmasına zəmin yaradır. Burdakı bədii vəziyyət lirik-romantik cəhəti ilə yüklənərək təhlilə çəkilir. Nurcahan əvvəlki gənclik ehtirası ilə yaşayıb-yaratmaq və sevilmək istəsə də, bu sevginin qarşı tərəfdən lazımi cavab reaksiyası ilə gerçəklənmədiyinə görə dərin təəssüf hissi və kədərlə yaşamağa məcbur olur. Nurcahanda yaşanan daxili gərginlik indiki məqamda və ya sonrakı yaşanılacaq durumunda, onun duşuncə tərzi, həyata, cəmiyyətə baxışında üzə çıxan hansısa daxili etiraz obrazın psixoloji özünüifadə məkanı kimi qabardılır.

IV Fəsil "**Psixologizm və poetik təfəkkür formaları**" üç bölümdən ibarətdir. Fəslin "**Remarkada hadisə, vəziyyətin və obraz-xarakterin bədii-psixoloji təsviri**" adlı bölümündə araşdırmalara əsasən bu qənaətə gəlinir ki, remarkada müəllif tərəfindən verilən hərəkətlərin və vəziyətlərin bədii-psixoloji təsviri daxili-psixoloji hərəkətin fiziki hərəkətlə gerçəklənməsi ilə müşayiət olunur. Başqa cür ifadə etsək, obrazların zahiri fiziki hərəkəti daxili psixoloji əsası ilə şərtlənir (Bax: II fəsil, 2.2. «Sən həmişə mənimləsən» pyesi müasir Azərbaycan dramaturgiyasında lirik-romantik psixologizmin nümunəsi kimi). Bu baxımdan «Sən həmişə mənimləsən» pyesi üzərində aparılan müşahidələr və ya təhlillər onu inkar etmədi ki, remarkada təsvirini tapan hərəkətlər, vəziyyətlər, davranışlar, münasibətlər və ya peyzaj, məkan, əşya komponentlərində daxili- psixoloji bağlılığı ilə üzə çıxan bədii-estetik şərtlər mövcuddur. Ədəbiyyatda təsdiqini tapan həmin estetik şərtə görə yaranmış bədii vəziyyət fonunda obraz ümümilikdə özünün və ətraf aləmin ifadəçisi kimi çıxış edir.

Bu cəhətdən yanaşdıqda, Nargilə-Həsənzadə münasibətlərində yaranan sıx yaxın bağlılıq remarkada təsvirini tapan hərəkət, davranışlarda və vəziyyətlərdə, o cümlədən peyzaj, məkan və əşya komponentlərində lirik-romantik qat üzərində köklənərək üzə çıxır. Obrazlar daxili istək və arzularını və ətraf aləmə münasibətini bədii vəziyyətə uyğun olaraq hərəkət, davranışları ilə gerçəkləşdirir.

Fəslin "**Daxili dialoqda bədii şərtilik psixologizmin daxili şərti bədii keyfiyyəti kimi: xəyali-bədii psixoloji səhnə, yaxud obraz-xarakterin real və şərti «mən»i ilə daxili söhbəti**"adlı bölümündə təhlillər göstərdi ki, psixologizmi şərtləndirən bədii vasitələrdən biri də daxili dialoqda üzə çıxan bədii şərtilik obrazlar aləminin zahiri və daxili görüntüsü ilə və ya hərəkətlər, davranışlar, münasibətlər və vəziyyətlərlə bağlı estetik təhlilə çəkilən psixologizmin daxili şərti bədii keyfiyyəti kimi meydana gəlir. Başqa sözlə, bədii şərtilik obrazların, onların daxili aləminin, hiss-düşüncələrinin və ətraf aləmə münasibətinin estetik ifadəçisi kimi gerçəkləşərək mühüm cəhətlərin, xüsusiyyətlərin qabardılıb üzə çıxmasında yardımçı rolunu oynayır."Şərtilik müasir insanın zəngin və zəngin olduğu qədər də mürəkkəb daxili aləmini açmaqda .. müəllifin müttəfiqi, köməkçisi olan bir bədii vasitədir və ... buna görə də şərtilik son dərəcə əsaslandırılmış, ehtiyaca müvafiq olmalıdır"[86].

Bu cəhətdən qəhrəmanın daxili aləmi, hiss, düşüncələri müəyyən vəziyyətlə şərtləndiyindən bu halda ətraf aləmi və özünü tanıyıb dərk etməsi üçün fikrən, özünü və ətraf aləmi təhlilə çəkir. Ətraf aləmi və özünütəhlil obrazda bu baxımdan daxili dialoq yaradır. Başqa cür deyilirsə, obraz bu halda daxili dialoqa girərkən sözün mütləq mənasında, iki başqa tərəflə üz-üzə qalır. Birincisi, gerçəkdə, realda olan «mən», ikincisi isə fikrən, xəyalən nəzərdə tutulan «şərti mən».Qəhrəmanın daxilən ehtiyac duyulduğu məqamda fikirlərini bölüşmək üçün başqa xəyali obrazla dialoqa girməsi, ünsiyyətə daxil olması «şərti mən» vasitəsi ilə gerçəklənir. Burada inikasını tapan «şərti mən» əsərdə psixologizmi şərtləndirən bədii-estetik funksiyanı yerinə yetirir.

Fəslin "**Bədii dil və ad psixoloji portretin şərti bədii işarəsi kimi**" üçüncü bölümündə təhlillər göstərdi ki, psixologizmi şərtləndirən bədii vasitələrdən – bədii dil və ya səhnə dili, yaxud ad psixoloji portretin şərti bədii işarəsi kimi gerçəklənir. "Bədii dil böyük tarixi inkişaf prosesində cilalanmış və formalaşmış bədii təsvir vasitələri sisteminə malik obrazlı dildir. O, insanlar arasında ünsiyyət yaradan, müəyyən bir fikri başqasına çatdıran, insanların dərdlərini, sevinclərini, əzablarını bildirən, onların ünsiyyətinin, fikirlərinin, keçirdikləri bütün ruhi vəziyyətlərinin özünü yaratmaq vasitəsidir. ... sənətkar öz qəhrəmanlarının əzablarını sadəcə olaraq bildirmir, o, bu əzabların özünü bədii nitq formasında yaradır"[87]. Bu baxımdan əsərdə iştirak edən obrazlar dav-

---

[86] Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı: Yazıçı, 1981, s. 111
[87] Elçin. Tənqid və nəsr. Bakı: Günəş, 1999, s. 142

ranışlarına, hərəkətlərinə və səviyyələrinə uyğun gələn intonasiya ilə söz və ifadələr işlədərək özünəxas danışıq tərzi nümayiş etdirməklə bütövlükdə özünün daxili dünyasının ümumiləşmiş obrazını və ya bədii portretini üzə çıxarır. Buradakı bədii portret psixoloji portretin şərti bədii ifadəsi kimi meydana gəlir və qavranılır. Başqa cür ifadə etsək, bu halda psixologizmi şərtləndirən bədii üsul və vasitələrdən biri kimi reallaşan bədii dil və ya səhnə dili psixoloji portretin şərti bədii işarəsi kimi qabardılır.

Milli dramaturgiyamız tarixində, xüsusən ötən əsrin müasir Azərbaycan ədəbiyyatında xidmətləri olan İlyas Əfəndiyevin dram əsərləri nümunələrində psixologizmi şərtləndirən bədii üsul və vasitələr sırasında özünə yer alan bədi dil və ya səhnə dili, yaxud adda psixoloji portretin şərti bədii işarəsi kimi qabardılan cəhətlər üstünlük qazanır.Bu cəhətdən Nurcahanın ("Mənim günahım") dilində və ya daha konkret deyilirsə, nitqində işlənən söz və ifadələrə pyes boyu nəzər yetirildikdə, ömrünü, gününü ruhən incəsənətə bağlayan, hərəkət, davranışlarında, ətraf gerçəkliyə münasibətində zərif məxluq kimi diqqəti çəkən obrazın lirik-romantik qatla yüklənmiş incə zövqlü, həssas ürəyə malik danışıq tərzi ondakı daxili aləmin ümumiləşmiş bədii-psixoloji portretinin üzə çıxarılmasına yardımçı olur.

Pyesin adı kimi müəyyənləşmiş «Sən həmişə mənimləsən» - əsərdə iştirak edən obrazların taleyində - Nargilənin həyatında mənəvi dayaq rolunu oynayan, dünyasını çoxdan dəyişmiş əziz atasının xəyali ruhu ilə bərabər indilikdə mənəvi sığınacaq kimi qəbul etdiyi Həsənzadə, yaxud Həsənzadənin isə xatirəsi ilə ovunduğu, həyatdan çoxdan köçmüş arvadı Xurşud xanımın xəyali ruhu əsərin bədii adında bütövləşərək psixoloji portretin və mənzərənin ümumiləşmiş şərti bədii işarəsi kimi simvollaşır.

Pyesin adı kimi təyin olunan «Büllur sarayda» da əsərin ideya-məzmununu aydınlaşdıran məqam kimi diqqəti çəkir. Zahirən cəlbedici, gözqamaşdırıcı, parıltılı təəssürat oyadan büllur saray qəhrəmandakı hərəkət, davranışlarında, ətraf gerçəkliyə münasibətlərində üzə çıxan mənfi keyfiyyətlərin formalaşmasına zəmin yaratsa da, zaman keçdikcə həmin mənfi xüsusiyyət ondakı arzu, istəklərin reallaşması yolunda bəzən hədsiz böyük və qarşısıalınmaz çətinliklər yaradır. Əsərin qəhrəmanı Aynur büllur sarayın cəlbedici sehrindən qurtula bilmədiyi üçün həsrəti ilə çırpındığı Həbiblə qovuşa bilmir. Buradakı «Büllur saray» Həbiblə Aynuru ayıran məqam və ya detal kimi psixoloji portretin şərti bədii işarəsi kimi simvollaşır.

Beləliklə, İlyas Əfəndiyevin dram əsərləri nümunəsində nəzərdən keçirilən psixologizmi şərtləndirən vasitələrdən olan bədii dil və ad ümumilikdə psixoloji portretin və mənzərənin şərti bədii işarəsi kimi əsərdə estetik funksiyanı yerinə yetirir.

Dissertasiyanın Nəticə hissəsində tədqiqatın son nəticəsi kimi ümumiləşmə öz əksini tapır.

**Dissertasiya mövzusu ilə bağlı iddiaçının aşağıdakı məqalələri elmi nəşrlərdə dərc olunmuşdur:**

1. “Sən həmişə mənimləsən” pyesi (İ. Əfəndiyev) müasir Azərbaycan dramaturgiyasında lirik-romantik təmayüllü psixologizmin ilk nümunəsi kimi // “Dil və Ədəbiyyat” (BDU), 2001, №1 (30), səh. 113-115.
2. Dramaturgiyamızda psixologizm problemi (məsələnin qoyuluşuna dair) // “Qobustan”, 2002, №3 (119), səh.75-76.
3. Literaturnıy əzık kak na osnove psixoloqiçeskoqo portreta // «Literaturnıy Azerbaydjan», 2007, №11 (30), səh. 122-126.
4. Dramaturgiyada lirik-romantik psixologizmin ilk nümunələri // “Qobustan”, 2003, №3 (123), səh.52-54.
5. Dramaturgiyamızda psixologizm problemi (ilkin variant) // “Elm”, 2000, 19 dekabr, №41-42 (562-563).
6. “Sən həmişə mənimləsən”dən “Sən həmişə bizimləsən”ə qədər. // “Azərbaycan” jurnalı, 2002, №7 (119), səh.186-187.
7. Müəllif remarkasında hərəkətin və durumun bədii-psixoloji təsviri // http// www. dgtyb.org., 19 noyabr, 2009.
8. Edebi-tarihi, nezeri-estetik fikirde psihologizm (I) (türkce) // http// www. dgtyb.org., 26 avqust, 2009.
9. Edebi-tarihi, nezeri-estetik fikirde psihologizm (II) (türkce) // http// www. dgtyb.org., 26 avqust, 2009.
10. Ədəbi-tarixi, nəzəri-estetik fikirdə psixologizm probleminin öyrənilməsi və qoyuluşuna dair. // Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı //Beynəlxalq elmi-praktiki konfransın materialları, 31 mart,2011,Bakı., ”Elm”.2011.səh.154-159
11. Bədii obrazda yaddaş psixologiyası və onun “mən”də ifadəsi .// http//www.dgtyb.org.,28 aprel,2010.
12. Daxili dialoqda bədii şərtilik psixologizmin daxili şərti bədii keyfiyyəti kimi, .// http//www.dgtyb.org.,18 iyun, 2010.
13. Dialoq və monoloqda bədii vəziyyət xarakterin psixoloji özünüifadə məkanı kimi.// http//www.dgtyb.org.,5 iyul, 2010.
14. Çağdaş Azərbaycan dramaturgiyasında lirik-romantik psixologizm. http://www.dgtyb.org/index.php?option=com_content&view=article&id=3877:khanverdi-turaboghlu&catid=14:meqaleler&Itemid=146. 26.05.2015 11:40 | Baxış sayı: 7

**Ханверди Тураб оглы Фарзиев**

# ПРОБЛЕМА ПСИХОЛОГИЗМА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ В ДРАМАТУРГИИ (На основе творчества И. Эфендиева)

## РЕЗЮМЕ


В диссертации проблема психологизма в современной азербайджанской драматургии исследована на основе творчества видного драматурга Ильяса Эфендиева. Исследование состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Во **введении** обосновывается актуальность избранной темы, рассматривается степень ее разработанности, сформированы основные цели и задачи исследования. Определяются объект и предмет, научная новизна, теоретическое и практическое значение диссертации.

**Первая глава** диссертации называется «Психологизм в литературно-критическом и теоретико- эстетическом наследии». Это глава состоит из двух разделов. В первом разделе – «Об изучении и постановке проблемы психологизма» психологизм изучен как литературно-художественная, теоретико-эстетическая категория, в которой сосредоточены образная система, тема, идея, сюжет, композиция, язык, стиль, жанр и поэтика произведения. В своих анализах исследователь основывается на теоретические взгляды азербайджанских и европейских авторов.

**Вторая глава** – «Драматические произведения и психологизм» также состоит из двух разделов, в которых проблема психологизма изучена в национальной азербайджанской драматургии. Во втором разделе- «Пьеса И.Эфендиева «Ты всегда со мной» как образец лирико-романтического психологизма в современной азербайджанской драматургии», пьеса «Ты всегда со мной» анализируется как образец лирико-романтического психологизма.

**В третьей главе** – «Художественные средства изображения внутреннего мира в драматургии» выявлены художественные средства передачи психологизма в контексте драматического творчества И.Эфендиева.

**В четвертой главе** – «Психологизм и виды поэтического мышления» проблема психологизма изучена в единстве с специфическими поэтическими формами драматического жанра.

**В заключении** подводятся итоги исследования и формулируются выводы по всему исследованию.

**Khanverdy Farziyev Turab oghlu**

## THE PROBLEM OF PSYCHOLOGY IN MODERN AZERBAIJAN IN DRAMA (Based on the creativity I. Efendiyev)

### SUMMARY

In the thesis the problem of psychology in modern Azerbaijani drama investigated on the basis of creativity prominent playwright Ilyas Efendiyev. The study consists of an introduction, four chapters, conclusion and bibliography.

In the introduction the relevance of the chosen topic is considered the degree of elaboration, formed the main goals and objectives of the study. Defines the object and subject, scientific novelty, theoretical and practical significance of the dissertation.

The first chapter of the thesis called "psychologism in literary criticism and theoretical aesthetic heritage." This chapter consists of two sections. The first section - "On the study and formulation of the problem of psychology," psychology studied as a literary and art, theoretical and aesthetic category, which focused imaging system, theme, idea, plot, composition, language, style, genre and poetic works. In their analysis, the researchers based on theoretical views of Azerbaijani and European authors.

The second chapter - "Dramatic works and psychology" is also divided into two sections, in which the problem was studied in the national psychology of the Azerbaijani dramaturgy. In the second division "I.Efendieva play" You always with me "as an example of lyrical and romantic psychology in modern Azerbaijani drama" play "You always with me" is analyzed as an example of lyrical and romantic psychology.

In the third chapter - "Art means images of the inner world in drama" found art means of communication psychology in the context of dramatic art I.Efendieva.

In the fourth chapter - "psychology and types of poetic thinking" problem studied psychology in unity with specific forms of poetic drama genre.

In conclusion summarizes the study and formulate conclusions on the whole study.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ХАНВЕРДИ ТУРАБ ОГЛЫ ФАРЗИЕВ**

# ПРОБЛЕМА ПСИХОЛОГИЗМА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ В ДРАМАТУРГИИ
**(На основе творчества И.Эфендиева)**

5716.01 - Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ – 2015**